Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

BAKI XƏBƏR

www.baki-xeber.com

21 NOYABR 2019-cu il

№ 207 (4105)

Qiyməti 40 qəpik

Həftədə 5 dəfə çıxır

Qəzet 2003-cü ildən nəşr olunur

# ABŞ MEDİASINDA İSLAHATLARA UNİKAL RƏY - «ƏLİYEV KÖHNƏ İNSTİTUTLARI BƏRPA ETMİR, YENİ TƏSİSATLAR QURUR»

■ səh. 5 ■

Prezidentin sadə insanlarla sərbəst ünsiyyət jestlərindən sui-istifadə meyllərinin yaranma ehtimalı - hamı kredit problemi ilə bağlı Prezidentdən xahiş etsə...

■ səh. 2 ■

Nazir Vilayət Eyvazov vətəndaşları 102 xidməti ilə daha sıx əməkdaşlığa həvəsləndirən prosesə start verdi...

■ səh. 3 ■

Almaniyada mühacir ticarətinə görə polisdə saxlanan iki şəxsə Azərbaycanda daha əvvəl cinayət işləri açılıb - nə baş verəcək...

■ səh. 4 ■

Cəmil Həsənlinin Milli Şuradan "can qurtarması" və Tofiq Yaqublunun irəli verilməsi planı...

■ səh. 7 ■

Banklar istehlak kreditləri kampaniyasını genişləndirir, maliyyə-pul sistemi üçün yeni təhlükə dalğası...

■ səh. 11 ■

Milli turizmimizin inkişafında böyük əngəllər...

■ səh. 10 ■

Goranboy Qeydiyyat Şöbəsinin rəisi ədliyyə işçilərinin peşə bayramı təəssüratlarından danışdı...

■ səh. 12 ■

Coratda qaz sayğaclarının dəyişdirilməsi əhaliyə yeni problem gətirib

■ səh. 13 ■



■ səh. 9 ■

## Naxçıvan... Ordusunun gücü barədə Prezidentin mesajlarına İrəvandan təlaş reaksiyaları...

*Ermənistanın üç istiqamətdən zərbələrə duruş gətirməməsi, «Türkiyə Suriyada ikən Naxçıvanı vuraq» eyforiyası...*



**Amerika təhsilli Azərbaycan nazirləri və məmurlar - «unikal imkanlar»...**

■ səh. 4 ■



Qarabağ Komitəsi adı altında radikalların son toplantısında üç nüans - sosial tələblər uğursuz oldu, Qarabağ şüarı ilə xalqı cəlb etmək taktikası...

■ səh. 7 ■

**Alman Polisi müsavatçı «mühacir alverçilər» dəstəsində əsas simanın Xəlilbəyli olduğunu aydınlaşdırdı**

■ səh. 6 ■

■ səh. 8 ■

Heydər Əliyev gəldi, milli azadlıq hərəkatının mərkəzi Bakıdan Naxçıvana köçdü və... YAP yarandı



■ səh. 3 ■

İran və Gürcüstandakı gərginləşən proseslər Ermənistanı niyə narahat edir...



■ səh. 13 ■

Rusiyada internetdən yeni istifadə qaydaları ətrafında qızğın müzakirələr Azərbaycana da adladı...



■ səh. 14 ■

Sığorta şirkətlərinin yeni problemi - "rentakar" maşınları niyə sığorta olunmur...



■ səh. 14 ■

Azərbaycanda yerli geyimlər istehsalı sürətlə tənəzzülə gedir...



# Prezidentin sadə insanlarla sərbəst ünsiyyət jestlərindən sui-istifadə meyllərinin yaranma ehtimalı - hamı kredit problemi ilə bağlı Prezidentdən xahiş etsə...

**Noyabrın 19-da Prezident İlham Əliyev metronun "28 May" stansiyasının qarşısında şəhər sakinləri ilə görüşərkən ona yaşlı qadın yaxınlaşıb və maddi dəstək xahiş edib. Belə ki, ölkə başçısına yaxınlaşan qadın ona problemlərini danışıb. Özünü Məmmədova Səmayə İbrahim qızı kimi təqdim edən həmin qadın bildirib ki, banka 6500 manat borcu var və qəzaya düşüb sağlamlığını itirdiyi üçün sözügedən borcu ödəyə bilmir.**

*"Elə etmək lazımdır ki, insanlar kredit götürərkən məsuliyyətli olsunlar"*

*Rəsul Cahangirli: "Dövlət başçısının humanistliyindən, sərbəst ünsiyyətə açıq olmasından sui-istifadə etmək istəyənlərin sayı arta bilər"*

Prezident qadını sakitləşdirib, onun probleminin həll ediləcəyini deyib və köməkçilərindən birinə qadının telefon nömrəsini yazmağı tapşırıb. Qadın borcunun "Bank of Baku"ya olduğunu deyib. Daha sonra əlavə edib ki, nəvəsinin universitetdə təhsil haqqına görə də 2500 manat borcları var və onu da ödəyə bilmir. İlham Əliyev bir daha qadına probleminin həll ediləcəyini bildirib, onu sakitləşdirib: "Yaxşı, sizinlə əlaqə saxlanacaq, telefonda olun, kömək ediləcək, narahat olmayın".

O da məlumdur ki, Prezident İlham Əliyev ölkə vətəndaşları ilə görüşlərində zaman-zaman insanlarla sərbəst ünsiyyətə önəm verir, onların üzləşdiyi problemləri dinləyir və bunun həlli ilə bağlı konkret göstərişlər verir. Dəfələrlə belə halların şahidi olmuşuq. Ancaq o da var ki, Prezidentin sadə insanlarla sərbəst ünsiyyət jestlərindən sui-istifadə meyllərinin yaranma ehtimalı var. Kredit problemlərinə dair müraciətlər və digər məqamlar istisna deyil. Bəziləri Prezidentin səmimiyyətindən bu məqsədlər üçün istifadə etmək istəyində olacaqlar. Baxmayaraq ki, bu ilin fevralında ölkə başçısı böyük bir humanist addım atdı. Belə ki, Prezidentin qərarı ilə vətəndaşların problemli kreditlər məsələsi yoluna qoyuldu. Ancaq görürük ki, yenə belə problemlər mövcuddur.

O baxımdan, dövlət başçısının sadə insanlarla sərbəst ünsiyyət jestlərindən sui-istifadə meyllərinin yaranma ehtimalını ekspertlər necə dəyərləndirirlər?

Məsələyə münasibət bildirən ekspert Rəsul Cahangirlinin sözlərinə görə, Prezident İlham Əliyevin humanistliyindən sui-istifadə etmək istəyənlər ola bilər: "Nəzərə almaq lazımdır ki, ölkə başçısı dəfələrlə əhalinin xeyrinə olan belə addımlar atıb. Məsələn, 2009-cu ildə elektrik enerjisinə görə əhalinin illərlə yığılan borcları silindi. Bununla bağlı yaranan borclar dövlət vəsaiti hesabına ödənildi. Nəticədə xeyli sayda abonent bundan yararlandı. Bundan başqa, Nardaran kəndinin sakinləri neçə il idi istifadə etdikləri təbii qaza görə ödəniş etmirdilər. Bu səbəbdən 50 milyon manat borc yığılmışdı. Sözügedən problem də ölkə başçısının qərarı ilə həllini tapdı. Həmçinin, kəndin qaz infrastrukturu əsaslı şəkildə yeniləndi. Daha sonra 2015-ci ildə baş verən 2 devalvasiya nəticəsində kreditlərin qaytarılmasında ciddi çətinliklər yarandı. Fiziki şəxslərin sözügedən problemi də məlum qərarla həll edildi. Fərdi olaraq da zaman-zaman bir çox insanın üzləşdiyi problemlər həllini tapıb. Nəzərə almaq lazımdır ki, Prezident İlham Əliyev cəmiyyətə açıq bir dövlət başçısıdır. Rayonlara səfərlərində birbaşa insanlarla ünsiyyətdə olur, onların problemlərini dinləyir. Əlbəttə ki, dövlət başçısının humanistliyindən, sərbəst ünsiyyətə açıq olmasından sui-istifadə etmək istəyənlərin sayı arta bilər. Fikirləşərlər ki, krediti ödəməyək və bununla bağlı yaranan borcları dövlət ödəsin. Bu bəzi insanlarda arxayınlıq hissi yarada bilər. Nəticədə kreditlərin vaxtında ödənilməsinə maraq azala bilər. Bütün kredit borclarını dövlət ödəsə, o zaman bu, dövlət üçün əlavə yük olacaq. Düzdür, heç də hər zaman Prezidentlə ünsiyyət imkanı olmur, amma bəzilərinin bundan sui-istifadə etməsi ehtimalı istisna deyil. Elə etmək lazımdır ki, insanlar kredit götürərkən məsuliyyətli olsunlar".



**Vidadi ORDAHALLI**

## Ağcabədi və Masallının icra başçılarının yerləri dəyişdirildi...

**Prezident İlham Əliyev Rafil Hüseynovun Masallı Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilməsi haqqında sərəncam imzalayıb.**

"Trend"in məlumatına görə, sərəncama əsasən, Rafil İsrafil oğlu Hüseynov Masallı Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilib.

Digər sərəncamla Rafil İsrafil oğlu Hüseynov Ağcabədi Rayon İcra Hakimiyyətinin başçısı təyin edilib.

Daha bir sərəncamla Prezident İlham Əliyev Şahin Məmmədovu Ağcabədi Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edib. Sərəncama əsasən, Şahin Kərim oğlu Məmmədov Masallı Rayon İcra Hakimiyyətinin başçısı təyin edilib.

# Qida Təhlükəsizliyi Agentliyinin bir neçə regional məmuruna "cinayət işi açılıbmış", Baş Prokurorluğun xəbəri yoxmuş...

## *Respublika Baş Prokurorluğu təkzib yaydı*

**Baş Prokurorluğun bununla bağlı yaydığı açıqlamada deyilir:**

Bəzi kütləvi informasiya vasitələrində Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin Gəncə regional bölməsinin rəisi Hüseyn Abdullazadənin, Gəncə regional bölməsinin Heyvan sağlamlığı və baytarlıq nəzarəti sektorunun müdiri Kamran Əzizovun, Lənkəran regional bölməsinin rəisi Əlimuxtar Bağırovun, Lənkəran regional bölməsinin Bitki sağlamlığı və fitosanitar nəzarəti sektorunun böyük məsləhətçisi Habil İsmayılovun barəsində Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində guya araşdırmalar aparılması ilə bağlı məlumatlar dərc edilib.



Həmin informasiyalar həqiqəti əks etdirmədiyindən təkzib edilir, eyni zamanda bildirilir ki, adları qeyd edilən şəxslərlə bağlı Qida Təhlükəsizliyi Agentliyindən Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinə hər hansı material daxil olmayıb və həmin şəxslər barəsində Baş İdarədə araşdırma aparılmayıb.

Kütləvi informasiya vasitələrinin nümayəndələrindən bir daha xahiş edilir ki, həqiqətə uyğun olmayan məlumatların yayılmaması və bu kimi halların gələcəkdə təkrarlanmaması məqsədilə həmin məlumatları dərc etmədən əvvəl informasiyanın düzgünlüyünü Baş Prokurorluğun Mətbuat xidməti ilə dəqiqləşdirsinlər.

***Baki-xeber.com***

# Mikayıl Cabbarov MDB Vergi Xidmətləri rəhbərlərinin Koordinasiya Şurasının sədri seçildi...

**İqtisadiyyat naziri Mikayıl Cabbarov MDB iştirakçısı olan dövlətlərin Vergi Xidmətləri rəhbərlərinin Koordinasiya Şurasının sədri seçilib.**

"Trend"in məlumatına görə, bu barədə qərar MDB üzv dövlətlərinin vergi xidmətləri rəhbərlərinin Koordinasiya Şurasının Moskvada keçirilən XXVI iclasında qəbul olunub.

İclasda Azərbaycanı İqtisadiyyat naziri Mikayıl Cabbarov təmsil edib. M.Cabbarov sədr vəzifəsini hazırda bu postda olan Rusiyanın Federal Vergi Xidmətinin rəhbəri Mixayıl Mişustindən təhvil alıb.



Qeyd edək ki, Şuranın növbəti iclası Bakıda keçiriləcək.

**Xatırladaq ki, qeyd edilən təşkilata Azərbaycan, Ermənistan, Belarus, Qazaxıstan, Qırğızıstan, Moldova, Rusiya, Tacikistan, Özbəkistan, Ukrayna vergi qurumları daxildir.**

# Nazir Vilayət Eyvazov vətəndaşları 102 xidməti ilə daha sıx əməkdaşlığa həvəsləndirən prosesə start verdi...

**Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazov "Törədilmiş və hazırlanan cinayətlər və hadisələr barədə məlumatların qəbulu, qeydiyyatı və baxılması qaydaları haqqında Təlimat"a dəyişiklik edilməsi ilə bağlı qərar imzalayıb. Qərarla təlimata 3.2-2-ci bənd əlavə olunub.**



## *Şəmsəddin Əliyev: "Yeganə "qaynar xətt"dir ki, 102-yə olunan zənglərə çevik qaydada reaksiya verilir"*

Yeni bənddə göstərilib ki, cinayət barədə 102 xidməti-zəng mərkəzi sisteminə məlumat verən şəxsin ilkin ərizəsinin alınması üçün ərazi polis qurumuna dəvət edilməsi qadağandır.

Lakin hadisə yerinə baxışın keçirilməsinə, müraciət edən və digər şəxslərdən dərhal izahatların alınmasına zərurət olmadığı hallar istisna təşkil edir.

Həmin məlumat üzrə əməliyyat-istintaq qrupu hadisə yerinə dərhal çıxır və müraciət edən şəxsin məlumatına əsasən yerində (hadisə yerində, yaşadığı və ya olduğu ünvanda) şifahi ərizə protokolu tərtib olunur.

Şəxs yazılı müraciət etmək istədikdə ərizəsi alınır. Şəxs məlumat verməkdən və ərizə yazmaqdan imtina etdikdə bu barədə protokol tərtib olunur. Həmin protokolda şəxsin məlumat verməkdən və ərizə yazmaqdan imtinasının səbəbləri haqqında qeyd aparılır. Protokol onu tərtib edən və məlumat verən şəxslər tərəfindən imzalanır. Bununla bağlı orqan rəhbərinin adına raport yazılır. Raport və protokol araşdırma materialına əlavə olunur.

Yalnız hadisə barədə verilmiş məlumatın (cinayət xarakterli olmayan) xarakterindən asılı olaraq, orqan rəisinin (olmadıqda məsul növbətçinin) göstərişi əsasında aidiyyəti ünvana polis sahə rəisi (inspektoru), post-patrul, yol-patrul xidməti naryadları, əməliyyat müvəkkili və ya digər struktur qurumların əməkdaşları göndərilir.

Qərarın icrasına nəzarət müvafiq sahəyə kuratorluğu həyata keçirən nazir müavinlərinə həvalə olunub. Qərar noyabrın 13-dən qüvvəyə minib.

Qeyd edək ki, son vaxtlar nazir Vilayət Eyvazov tərəfindən atılan addımlar, qəbul edilən qərarlar əhali tərəfindən böyük rəğbətlə qarşılanır. Məsələn, piyadaların yolu keçərkən polis tərəfindən yerindəcə cərimələnməsinin ləğvi, avtomobillərin arxa şüşələrinə vurulan pərdə və plyonkalara tətbiq edilən qadağanın dayandırılması və başqalarını bura aid edə bilərik. 102 xidmətinə edilən müraciətlərlə bağlı qəbul edilən yeniliyin vətəndaş məmnunluğu və polisin fəaliyyətinə nə kimi təsiri olacaq?

"Polisə Dəstək" İctimai Birliyinin sədri Şəmsəddin Əliyev "Bakı-Xəbər"ə bildirdi ki, bu yenilik DİN-in fəaliyyətində ciddi dönüş yaradacaq: "Sirr deyil ki, vətəndaşlar DİN-ə müraciət edəndə onların mütləq mənada ərazi üzrə polis bölmələrinə dəvət olunması tələb edilirdi. Bunun hansısa formada təmin olunması lazımdır. Çünki söhbət cinayətin araşdırılmasından gedirsə, orada mütləq şikayətçinin izahatının alınması, dindirilməsi olmalıdır. Yeni qərarla bu asanlaşır. Həmin şəxsin yanına polislərin özü gedəcək. Əvvəllər bir şikayətə görə vətəndaşlar bir neçə dəfə polisə dəvət edilirdisə, bu aradan qaldırılacaq. Burada həm də anonimliyin qorunması da təmin olunacaq. Yeni əmrdə buna da böyük önəm verilib. Şikayətçi, məlumatı verən şəxsin anonimliyinin təmininə qanunla icazə veriləcək. Biz fikir verirdik ki, qadınlar belə müraciətləri etməkdən çəkinirdilər. Daha çox kişilər 102-yə zəng vururdular. Qadınlar polisə çağırılmaları, adlarının hallanması səbəbindən belə müraciətləri etməkdən çəkinirdilər. Hesab edirəm ki, bu yenilikdən sonra deyilən narahatlıq da aradan qalxacaq. Bundan sonra bütün prosesual hərəkətlərin həyata keçirilməsində vətəndaş məmnunluğu maksimum nəzərə alınacaq. Bunlar özünü cinayətlərin üstünün açılması ilə bağlı statistikada müsbət mənada göstərəcək".

*"Bu çeviklik həm cinayətlərin "isti izlər"lə açılmasına xidmət edir, həm də vətəndaş məmnunluğunun yaranmasına təsir göstərir"*

Ş.Əliyev bildirdi ki, DİN-in "qaynar xətt"i digər qurumlarla müqayisə olunmayacaq dərəcədə ideal vəziyyətdə fəaliyyət göstərir: "Nazirlər Kabinetinin tərkibinə daxil olan bir çox qurumda "qaynar xətt" fəaliyyət göstərir. Ölkə Prezidentinin son tapşırıqlarından sonra əhalinin həmin "qaynar xətt"lərə müraciətlərində artım müşahidə olunur. Ancaq heç kimə sirr deyil ki, bir çox "qaynar xətt"ə zəng edərkən biz məyus oluruq. Bəzən uzun zaman melodiyalara qulaq asmağa məcbur qalırıq. Ancaq yeganə "qaynar xətt"dir ki, 102-yə olunan zənglərə çevik qaydada reaksiya verilir. Bu çeviklik həm cinayətlərin "isti izlər"lə açılmasına xidmət edir, həm də vətəndaş məmnunluğunun yaranmasına təsir göstərir. Cənab Prezident son müşavirələrdən birində dedi ki, Azərbaycan xalqının polisə etimadı və inamı var. Bunu qazanmaq üçün belə fəaliyyət lazımdır. Hesab edirəm ki, 102-yə müraciətlərlə bağlı olunan dəyişiklik həmin xidmətin işini daha da təkmilləşdirəcək və bunun da polisin fəaliyyətinə faydası olacaq".

*Məhəmmədəli QƏRİBLİ*

# İran və Gürcüstandakı gərginləşən proseslər Ermənistanı niyə narahat edir...

**Son günlər regionda yerləşən 2 dövlətdə etiraz aksiyaları geniş vüsət alıb. Belə ki, İranda yanacağın qiymətinin qalxması ilə razılaşmayan vətəndaşlar küçələrə üz tutdular. Gürcüstanın paytaxtı Tiflisdə ölkə parlamentinin binası qarşısında növbəti etiraz aksiyası keçirilir.**



## *Əli Orucov: "Çünki Ermənistan bu iki dövlətin ümidinə qalıb və onlar sayəsində nəfəs ala bilir"*

Birində sosial problemlə bağlı tələblər irəli sürüldüsə, digərində isə növbədənkənar parlament seçkilərinin keçirilməsi gündəmə gəldi.

Maraqlı olan məqam odur ki, Ermənistanda Gürcüstan və İranda gedən siyasi proseslər böyük narahatlıqla izlənir. Erməni mediasında bununla bağlı dərc olunan müxtəlif yazılarda da bu özünü göstərir. Məsələn, "Politik.am" saytı yazır ki, qonşu iki ölkədə gedən proseslər Ermənistan ətrafında halqanı daraldır: "Bizim şimal və cənub qonşularımız olan Gürcüstanda, İranda hökumət əleyhinə etirazlar keçirilir. Bu sadə olmayan hadisələr Ermənistan üçün güclü zərbə ola bilər. Belə ki, Ermənistan üçün xarici dünya ilə quru əlaqəsi bu iki dövlətlə həyata keçirilir və bu ölkələrdəki daxili qeyri-stabillik bu əlaqəni kəsəcək. Bu situasiyada İrəvan müşahidədən artıq heç nə edə bilməz".

"Lragir.am" saytı isə bənzər hadisələrin Ermənistanda da baş verə biləcəyinə eyham vurub: "Bu proseslər içərisində Ermənistan sabitlik adası kimi görünür. Birincisi, burada inqilab artıq baş verdi və hakimiyyət dəyişdi. İkincisi, dəyişiklik manqal və şampan ilə qansız oldu. Ancaq baş verən proseslər fonunda İrəvan həm xarici oyunçularla münasibətlərdə, həm də daxili baxımdan tarazlığı qorumağı bacaracaqmı?".

Görünən odur ki, Ermənistan hər iki qonşu ölkədə gedən proseslərdən narahatdır. Maraqlıdır, ermənilər niyə bu qədər narahatdırlar?

Məsələyə münasibət bildirən AMİP funksioneri Əli Orucov Ermənistanda bununla bağlı yaşanan narahatlığı bir sıra amillərlə əlaqələndirdi: "Məsələ ondadır ki, Ermənistan Gürcüstan və İranla həmsərhəddir. Bu sərhəd, əslində, onlar üçün nəfəslikdir və həyati əhəmiyyət daşıyır. Nəzərə almaq lazımdır ki, Ermənistanın açıq dənizə çıxışı yoxdur. Dörd ölkə ilə quru sərhədinə malikdir. Onlardan ikisi ilə sərhəd bağlıdır. Yürütdüyü təcavüzkar siyasəti ilə özünü blokadaya salan Ermənistan bu iki dövlətin ümidinə qalıb və onlar sayəsində nəfəs ala bilir. Əgər Gürcüstanda və İranda siyasi proseslər arzuolunmaz səviyyəyə yön alsa, sabitlik pozularsa, o zaman Ermənistan çətin vəziyyətə düşəcək. Bu həm iqtisadi-siyasi, həm də humanitar sahədə ciddi fəsadlara səbəb olacaq. Məlum olduğu kimi, həm İranda, həm də Gürcüstanda minlərlə erməni yaşayır. Bu ölkələrdə proseslərin gedişi fonunda həmin ermənilərin Ermənistana qaçması bu ölkədə həm də kriminogen durumu tam nəzarətdən çıxara bilər. Aclıq və fəlakət baş alıb gedər. Daha böyük əndişə isə İran istilasında olan Güney Azərbaycanın müstəqillik tələbləri, yaxud birləşmə ehtimallarıdır. Bu ehtimal ermənilərin yuxusunu ərşə çəkib. Ermənistan və bütün dünya erməniləri üçün ən bəddua Güney Azərbaycanla Quzey Azərbaycanın birləşmə ehtimalıdır. Çünki bu, ermənilər üçün ölüm hökmünün oxunması deməkdir".

*"Bu həm iqtisadi-siyasi, həm də humanitar sahədə ciddi fəsadlara səbəb olacaq"*

*Vidadi ORDAHALLI*

# Amerika təhsilli Azərbaycan nazirləri və məmurlar - "unikal imkanlar"...

**Bu günlərdə "Facebook" istifadəçilərinin suallarına canlı yayımda cavab verən ABŞ-ın Azərbaycandakı səfiri Örl Litzenberqer bildirib ki, Azərbaycan hökumətinə yeni təyin olunanlardan bəziləri ABŞ-da təhsil alıb, bu amil ölkəmizin xeyrinə olacaq: "Prezident İlham Əliyev Azərbaycanın gələcəyi naminə şəffaflığı artırmağın, korrupsiyaya qarşı mübarizənin, qanunun aliliyini təmin etməyin vacibliyini dəfələrlə qeyd edib.**



Bu proses güclü və davamlı islahatlar aparılmasını şərtləndirir. Ümidvaram ki, yeni təyin olunan hökumət üzvləri ilə görüşüb islahatlarla bağlı söhbət etmək fürsətim olacaq. ABŞ-da təhsil alan şəxslərin Azərbaycan hökumətində təmsil olunmalarına çox şadam. Onların ABŞ-da təhsil almaları qarşılarında nadir perspektivlər, unikal imkanlar açır. Həmin şəxslər mövcud problemlərin öhdəsindən daha yaxşı gələrək, Azərbaycana daha gözəl gələcək təmin etməyə çalışacaqlar".

ABŞ səfirinin bu fikirləri bizi kiçik bir araşdırma aparmağa sövq etdi. Görəsən, Azərbaycanın hansı məmurları və nazirləri ABŞ təhsillidir? Bu xüsusda yüksək vəzifələrə yeni təyin olunan gənc kadrların harada ali təhsil almaları ilə bağlı araşdırma apardıq.

Məlum oldu ki, bu yaxınlarda Azərbaycan Prezident Administrasiyasının rəhbəri təyin olunan Samir Nuriyevin tərcümeyi-halında onun ABŞ-da təhsil aldığı qeyd olunur: "O, 1991-ci ildə Azərbaycan Texniki Universitetinə daxil olaraq 1996-cı ildə həmin universitetin Mühəndis biznesi və menecment fakültəsini mühəndis-iqtisadçı ixtisası üzrə fərqlənmə diplomu ilə bitirib. 2003-2005-ci illərdə təhsilini ABŞ-ın Dyuk Universitetində davam etdirərək beynəlxalq inkişaf siyasəti üzrə magistr dərəcəsini əldə edib".

Yeni təyin olunan İqtisadiyyat naziri Mikayıl Cabbarovun tərcümeyi-halında da ABŞ-da təhsil aldığına dair qeyd var. Bildirilir ki, 1992-1997-ci illər Bakı Dövlət Universitetində təhsil alıb, beynəlxalq hüquq fakültəsini fərqlənmə diplomu ilə bitirib. 1997-1998-ci illər ABŞ-ın Kaliforniya ştatının Sakramento şəhərindəki Pasifik Universitetinin Makcorc Hüquq məktəbində hüquq üzrə magistr dərəcəsi alıb.

Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin rəisi olan Vüsal Hüseynovun bir neçə ali təhsili olsa da, onun həm də ABŞ-ın nüfuzlu Harvard Universitetinin məzunu olduğu bildirilir: "1997-ci ilin sentyabrında Azərbaycan Dövlət İqtisad Universitetinin İqtisadiyyat fakültəsinə daxil olub. 2001-ci ilin sentyabrından 2002-ci ilin iyununa kimi o, Slovakiyanın paytaxtı Bratislavadakı "Academia İstropolitana Novada" intensiv ətraf mühit iqtisadiyyatı kursunda iştirak edib. 2003-cü ilin sentyabrında o, UNEC-də magistraturaya daxil olub və 2005-ci ilin iyununda beynəlxalq iqtisadi münasibətlər üzrə magistr dərəcəsi alıb.

2008-ci ildə o, Bakı Dövlət Universitetinin Hüquq fakültəsinə qəbul olunub və 2012-ci ildə oranı bitirib.

2010-cu ilin iyununda Vüsal Hüseynov Harvard Universitetinin Con Kennedi adına idarəçilik məktəbinin inzibati idarəçilik üzrə magistr proqramına qəbul olunub. O, təhsili müddətində Xaricdə təhsil üzrə Dövlət Proqramı çərçivəsində təqaüd alıb. 2011-ci ilin mayında o, Harvard Universitetinin inzibati idarəçilik üzrə magistr dərəcəsinə yiyələnib.

Cəmiyyətdə Kənd təsərrüfatı naziri İnam Kərimovun da ABŞ təhsilli olduğuna dair fikirlər yayılsa da, bu doğru deyil. Nazirin rəsmi tərcümeyi-halında xaricdə təhsil almasına dair məqamlar var, ancaq bu, ABŞ yox, Fransanı əhatə edir: "1995-ci ildə Bakı Dövlət Universitetinin Beynəlxalq hüquq ixtisasına qəbul olunan İnam Kərimov, 1998-ci ildən 2000-ci ilə qədər Fransanın Strasburq Universitetində hüquq ixtisası üzə təhsil alıb. 2000-2002-ci illərdə isə o, Fransanın nüfuzlu universiteti hesab olunan Sorbonna Universitetində hüquq ixtisası üzrə magistr təhsili alıb".

Yeni vəzifəyə təyin olunan gənc kadrlardan biri də Azərbaycan Respublikasının Əmək və əhalinin sosial müdafiəsi naziri vəzifəsini icra edən Sahil Babayevdir. Nazirin tərcümeyi-halını incələdikdə onun xaricdə heç bir ali təhsil almadığı məlum olur: "2000-ci ildə Bakı Dövlət Universitetində "Beynəlxalq hüquq və beynəlxalq münasibətlər" sahəsi üzrə bakalavr pilləsini fərqlənmə ilə bitirib. 2002-ci ildə magistr pilləsini fərqlənmə ilə başa vuraraq magistr dərəcəsi, 2010-cu ildə hüquq üzrə fəlsəfə doktoru dərəcəsini alıb".

Rəsmi məlumatlarda Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri Səfər Mehdiyevin də xaricdə təhsil aldığı qeyd edilsə də, bunun ABŞ olmadığı qənaəti hasil olur. O, 1998-ci ildə Türkiyənin EGE Universitetinin Beynəlxalq iqtisadi əlaqələr fakültəsini bitirib.

Ola bilər ki, nazir müavinləri və başqa mühüm dövlət postlarında ABŞ-da təhsil alan kadrlar daha çoxdur. Ancaq biz son dönəmdə yüksək vəzifəyə təyin olunan gənc kadrlarla bağlı apardığımız araşdırmanı təqdim etdik.

*Məhəmmədəli QƏRİBLİ*

# Almaniyada mühacir ticarətinə görə polisdə saxlanan iki şəxsə Azərbaycanda daha əvvəl cinayət işləri açılıb - nə baş verəcək...

## *Fərhad Mehdiyev: "Azərbaycana deport ediləndən sonra isə onların burada törətdikləri əməllərə hüquqi qiymət veriləcək"*

**Almaniyada mühacir alverində ittiham olunaraq saxlanan Azərbaycan vətəndaşları ilə bağlı Koblenz məhkəməsinin qərarı açıqlanıb. Maddi sübutların aşkar edilməsi üçün evə və digər obyektlərə, həmçinin, təqsirləndirilənlərə məxsus nəqliyyat vasitələrinə, eləcə də onlara aid digər əşyalara baxış keçirilməsi barədə qərardadda qeyd olunub:**

"Elektron və kağız daşıyıcılarda üçüncü şəxslərin qanunsuz ölkə ərazisinə daxil olması, təqsirləndirilənlərin əmlak, maliyyə və gəlirləri barədə elektron və yazılı məlumatlar; mobil telefonlar, kompyuter, elektron tabletlər, qanunsuz olaraq ölkəyə gətirilən şəxslər barədə məlumatların yerləşdiyi yaddaş kartları, xüsusilə İsmayılovun şahidliyi ilə; yerli və xarici bank hesabları; 1000 avro nağd pul; üçüncü şəxslərə məxsus pasport və digər identidikləşdirmə sənədləri; xidməti möhür; sui-istifadə olunmuş qaçqınlıq statusu ilə bağlı müraciət üçün ərizə nüsxələri və digər bu növ sənədlər. Sadalanan maddi sübutlar, hansı ki, istintaqın gedişi ilə bağlı əhəmiyyətli sayıla bilər, müsadirə olunmalı və qorunması təmin edilməlidir. Könüllü şəkildə təqdim olunmayan maddi sübutlar zorla müsadirə olunur".

Rəsmi məlumatda aparılan axtarışların səbəbləri də izah olunub: "Aparılan axtarış tədbirləri Koblenz prokurorluğunun 08.10.2019-cu il tarixli ərizəsi əsasında həyata keçirilmişdir. Çünki faktlar nəticəsində, araşdırma zamanı maddi sübutların aşkar olunması və müsadirəsi ehtimalı var. (Alman Cinayət Prossesual Qaydalarının §§ 94, 102, 105, 162-ci maddələri).

İndiyədək aparılan istintaq nəticəsində əldə edilən faktlar əsasında təqsirləndirilən Məmmədov barəsində gəlir əldə etmək məqsədilə insanların qanunsuz olaraq ölkəyə gətirilməsi, o cümlədən, çirkli pulların yuyulması kimi əməllərinin olmasına dair əsaslı şübhələr var".

Həmçinin, qeyd olunub ki, təqsirləndirilən şəxs, ən azı, 2015-ci ildən etibarən digər təqsirləndirilən şəxs Mehdi Xəlilbəyli (O, Müsavat Partiyasının üzvü, Müsavat AKM sədrinin müavinidir - red.) ilə birlikdə, gəlir əldə etmək məqsədilə, Azərbaycan vətəndaşlarına icazəsiz, pasportsuz, pasport əlavəsiz, yaşamaq hüququ olmadan Almaniyaya gəlməyə kömək etməkdə və bununla gəlir əldə etməkdə şübhəli bilinir.

Həbsi rəsmən təsdiqlənən şəxslərdən biri də Əlövsət Əliyevdir. Xalq yazıçısı Sabir Rüstəmxanlının qardaşı olan bu şəxs əvvəllər DİN orqanlarında çalışıb. Bir ailəni istinataqdan yayındırıb xaricə qaçırdığına görə barəsində cinayət işi açılaraq axtarışa verilib. Məhz həmin hadisədən sonra Əlövsət Əliyev ölkəni tərk edərək, Almaniyada sığınacaq alıb. Adı cinayət işinin əsas fiqurantı kimi keçən M.Xəlilbəyli barəsində də Azərbaycanda cinayət işi var, barəsində axtarış elan olunub. O, 2003-cü ilin 15-16 oktyabr hadisələri zamanı




Müsavat Partiyasının qabağında jurnalist Sahil Kərimlinin döyülməsinə görə təqsirli bilinir və axtarışa verilib. Faktiki olaraq Almaniyadakı saxta mühacir işində adları keçən əsas iki şəxsin Azərbaycanda etdikləri cinayət əməllərinə görə barələrində axtarış elan olunub. Onlar həmin hadisələrə görə təqib olunduqlarını əsas gətirərək, Almaniyaya sığınıblar. İndi də Alman Polisinin özü onların cinayət əməlini ifşa edib. Həmin adamlarla bağlı proses necə yekunlaşa bilər? Cinayət işlərinin birləşdirilməsi mümkündürmü?

Hüquq üzrə professor Fərhad Mehdiyev "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, böyük ehtimalla, onların ölkəyə deportu reallaşacaq: "Burada törətdikləri cinayətin motivindən asılıdır. Onlar istintaqdan yayındıqları, barələrində axtarış elan olunduğu üçün, cinayətdən azad olunma ilə bağlı müddət axını dayandırılıb. Yəni bu hallarda o hesablanmır. Məsələn, az ağır cinayətlərə görə bu müddət 7 il nəzərdə tutulur. Onlar, faktiki olaraq, Almaniyada konkret cinayət əməlinə görə həbs ediliblər. Barələrində istintaq aparılacaq, sonra məhkəmə hökmü olacaq. Alman qanunları çox da sərt deyil. Onların alacağı cəzanın müddətinin də böyük əhəmiyyəti olacaq. Həbs olunduqları və həbsdə olacaqları müddət cinayətdən azad olunma ilə bağlı müddət axınına aid olunacaq. Söhbət burada törədilən cinayətlərdən gedir. Çünki həbs ediləndən sonra bu müddət bərpa olunur. Əgər burada az ağır cinayət törədiblərsə, Almaniyadakı cəzaları da 7 ildən az olacaqsa, onda mütləq mənada cəzaları başa çatan kimi Azərbaycana deport ediləcəklər. Söhbət ekstradisiyadan yox, məhz deportdan gedir. Çünki həmin adamların əlində alman vətəndaşlıqları yoxdur. Azərbaycana deport ediləndən sonra isə onların burada törətdikləri əməllərə hüquqi qiymət veriləcək. Mənim təxminim budur ki, onlar, böyük ehtimalla, bura deport ediləcəklər".

*Məhəmmədəli QƏRİBLİ*

# ABŞ mediasında islahatlara unikal rəy - "Əliyev köhnə institutları bərpa etmir, yeni təsisatlar qurur"

**Ölkədə həyata keçirilən islahatların bu gün ən mühüm nəticələrindən biri qeyri-neft sektorunda ciddi irəliləyişlərin əldə olunması ilə bağlıdır. Xatırladaq ki, qeyri-neft sektorunun inkişafı məsələsini Prezident İlham Əliyev də daim xüsusi qabardır və iqtisadi inkişafın məhz bu sektor üzərində qurulmasını ön plana çəkir.**



Bu istiqamətdə atılan addımlar isə, qeyd olunduğu kimi, öz müsbət nəticələrini verir. Təkcə bu ilin ilk 9 ayında qeyri-neft sənayesində əlavə dəyər 16,6 faiz artıb. Gələn il bu göstəricinin daha yuxarı hədlə ifadə olunması proqnozlaşdırılır.

Bu gün ölkənin ixrac potensialının həyata keçirilməsində də qeyri-neft sektoru xüsusi əhəmiyyətə malikdir. Bütün bu proseslərdə isə həyata keçirilən islahailar vacib rol oynayır. Qeyd edək ki, bu islahatlar artıq beynəlxalq miqyasda da yüksək qiymətləndirilir. Nüfuzlu maliyyə qurumları bildirir ki, islahatlar Azərbaycanı daha sürətli və enerji amilindən asılı olmayan tərəqqi yoluna çıxarır. Məsələn, bir müddət əvvəl "The American Interest" nəşri bu xüsusda yazırdı ki, Azərbaycanda islahatların həyata keçirilməsi ilə bağlı səylər 2015-ci ildə dünyada neftin qiymətinin enməsi ilə bağlı olsa da, onlar Azərbaycanda bundan əvvəl də aparılıb. Bildirilir ki, son 4 ildə bu islahatlar daha dinamik xarakter alıb:"2014-cü ildən fəal islahatlara başlanıb. İqtisadiyyatın şaxələndirilməsinin bəlli metodu Avropa və Asiyanı birləşdirən quru yolu ilə nəqliyyat dəhlizinin inkişafı üzrə Çin və Avropa ölkələrinin planlarında iştirak etmək idi. Özü də Prezident İlham Əliyevin islahatlara yanaşma tərzi həmişə köhnə institutların "təmiri" deyil, mümkün qədər yeni təsisatların yaradılması olub. Azərbaycan hökuməti ölkəni iki nəqliyyat dəhlizinin - Avropa İttifaqı və Çinin həyata keçirdiyi "Şərq-Qərb" və Rusiya-İran və Hindistanı birləşdirəcək "Şimal-Cənub" layihələrinin habına çevirməyi planlaşdırır. Bu kontekstdə Bakının ətrafında yerləşən və azad iqtisadi zona olan Ələt limanı əsas mərkəzdir. Rusiya, Mərkəzi Asiya və ya İrandan Ələtə daxil olan yükləri 2017-ci ilin oktyabrında açılmış Bakı-Tiflis-Qars dəmir yolu marşrutu ilə dərhal Avropadakı təyinat yerlərinə göndərmək mümkündür. Həyata keçirilən bu islahatların nəticəsində Dünya Bankı özünün "Doing Business" hesabatında Azərbaycanın reytinqini 2018-ci ildəki 57-ci yerdən 2019-cu ildə 25-ci pilləyə qaldırıb. Dünya Bankı biznes qurmağın asanlığını, tikintiyə icazə almaq üçün "vahid pəncərə" sistemini, mülkiyyətin qeydiyyatını və vergi və rüsumların ödənilməsi, habelə gömrük prosedurlarının həyata keçirilməsinin elektron və şəffaf sistemini xüsusi olaraq vurğulayıb. Azərbaycanda islahatların keçirilməsi səyləri Vaşinqton və Bakı arasında müsbət istiqamətdə əməkdaşlığa əsaslanan ikitərəfli strateji dialoqun aparılmasına şərait yaradır".

Nüfuzlu "Emerging Europe" portalı da Azərbaycanda islahatları yüksək qiymətləndirir. Bildirilir ki, son dövrlərdə ölkənin iqtisadi göstəricilərinin davamlı yaxşılaşması, investisiya mühitinin inkişaf etdirilməsi üzrə aparılan kompleks islahatlar müsbət nəticələrini verir. Portal Azərbaycanda aparılan bu iqtisadi islahatlar modelinin digər inkişaf etməkdə olan ölkələrdə də tətbiq edilə biləcəyini vurğulayıb. Dünya Bankının Cənubi Qafqaz üzrə regional direktoru Sebastian Molineus da bildirir ki, Azərbaycanda çox uğurlu sosial iqtisadi layihələr həyata keçirilir və Dünya Bankı bu islahatları yüksək qiymətləndirir. Onun sözlərinə görə, təmsil etdiyi qurumla Azərbaycan arasında olduqca uğurlu əməkdaşlıq var və Dünya Bankı bu əməkdaşlığı davam etdirməkdə maraqlıdır. Bu yaxınlarda Azərbaycana etdiyi səfəri xatırladan Molineus qeyd edir: "Azərbaycanda müzakirə etdiyim layihələr məhkəmə islahatları, bərk tullantıların idarə olunması, təhsil və digər bir sıra sahələri əhatə edib. Bu sahələr Azərbaycanın davamlı iqtisadi inkişafı və ölkədə həyata keçirilən islahatlar üçün böyük əhəmiyyət kəsb edir".

Ekspertlər isə bildirir ki, islahatların dünya miqyasında yüksək qiymətləndirilməsi mühüm əhəmiyyətə malikdir. Ən azı o baxımdan ki, bu hal ölkəyə yeni sərmayə axınına əlavə təkan verir, investorların diqqətini birbaşa Azərbaycana yönəldir. Belə vəziyyət, öz növbəsində, həm də qeyri-neft sektorunun inkişafında mühüm rol oynayır. Elə hökumət də hadisələrin məhz bu səpkidə inkişafında xüsusi maraqlı tərəf kimi çıxış edir. Bunu Hesablama Palatasının sədri Vüqar Gülməmmədov da xüsusi olaraq vurğulayır. O, görülən işlər nəticəsində artıq büdcə gəlirlərinin formalaşmasında qeyri-neft sektorunun xüsusi çəkisinin artdığını da qeyd edir:"Növbəti ilin dövlət büdcəsini fərqləndirən bir neçə məqam var və bu məqamlar həm gəlir, həm də xərc parametrlərinə xasdır. İlk olaraq gəlirlərlə bağlı bir neçə amil diqqətə çatdırılmalıdır. Dövlət büdcəsinin gəlirlərinin tərkibində neft sektorunun payının çox olması fonunda növbəti ildə qeyri-neft sektorunun daha sürətli artımı nəzərdə tutulub". O bildirib ki, bu, həmin sektordan daxilolmaların ilk dəfə 11 milyard manata yaxın proqnozlaşdırılmasına səbəb olub:"Son illərdə müşahidə olunan meyllərin əksinə olaraq, 2020-ci ildə cari illə müqayisədə Dövlət Neft Fondundan transfertlərin məbləğinin və ümumilikdə transfertlərin büdcə gəlirlərində payının azalma meylli olması gözlənir. Son zamanlar müşahidə olunan vergi ödəyiciləri üzərində inzibati təzyiqlərin yumşaldılması və vergi inzibatçılığının əsasən intizamsız vergi ödəyiciləri üzərində gücləndirilməsi prosesi könüllü bəyannəmənin səviyyəsini artırmaqla qeyri-neft sektorunun potensialından daha səmərəli istifadə olunmasını təmin edir. Bu meyillər bilavasitə dövlət büdcəsi gəlirlərinin bir sıra əhəmiyyətli parametrlərinin müsbət inkişafını şərtləndirməklə 2020-ci il üçün dövlət büdcəsi gəlirlərinin proqnoz göstəricilərinin də artım prioritetlərini müəyyənləşdirib.

Eyni zamanda, cari illə müqayisədə 2020-ci il üçün vergi gəlirləri üzrə 10 faizlik (9 milyard 551,4 milyon manata qarşı 10 milyard 507milyon manat), qeyri-neft sektorundan ümumi gəlirlər üzrə 12 faizlik (9 milyard 467,7 milyon manata qarşı 10 milyard 604,5 milyon manat proqnozlaşdırılması islahatların səmərəliliyini göstərir".

Qeyd edilənlər islahatların artıq Azərbaycan üçün mühüm effekt verdiyini də aydın nümayiş etdirir.

***Nahid SALAYEV***

# Alman Polisi müsavatçı "mühacir alverçilər" dəstəsində əsas simanın Xəlilbəyli olduğunu aydınlaşdırdı

*Hələlik şəxsiyyəti bilinməyən 60-a qədər azərbaycanlıdan və 300 min avrodan söhbət gedir...*

**Almaniyada mühacir alverində ittiham olunaraq saxlanılan Azərbaycan vətəndaşları ilə bağlı Koblenz məhkəməsinin qərarı açıqlanıb. Baki-xeber.com "Trend"ə istinadən xəbər verir ki, maddi sübutların aşkar edilməsi üçün evə və digər obyektlərə, həmçinin təqsirləndirilənlərə məxsus nəqliyyat vasitələrinə, eləcə də onlara aid digər əşyalara baxış keçirilməsi barədə qərardadda qeyd olunub:**

"Elektron və kağız daşıyıcılarda üçüncü şəxslərin qanunsuz ölkə ərazisinə daxil olması, təqsirləndirilənlərin əmlak, maliyyə və gəlirləri barədə elektron və yazılı məlumatlar; mobil telefonlar, komputer, elektron tabletlər, qanunsuz olaraq ölkəyə gətirilən şəxslər barədə məlumatların yerləşdiyi yaddaş kartları, xüsusilə İsmayılovun şahidliyi ilə; yerli və xarici bank hesabları; 1000 avro üzəri nəğd pul; üçüncü şəxslərə məxsus pasport və digər identidikləşdirmə sənədləri; xidməti möhür; sui-istifadə olunmuş qaçqınlıq statusu ilə bağlı müraciət üçün ərizə nüsxələri və digər bu növ sənədlər.

Sadalanan maddi sübutlar, hansı ki, istintaqın gedişi ilə bağlı əhəmiyyətli sayıla bilər, müsadirə olunmalı və qorunması təmin edilməlidir. Könüllü şəkildə təqdim olunmayan maddi sübutlar, zorla müsadirə olunur".

Rəsmi məlumatda aparılan axtarışların səbəbləri də izah olunub: "Aparılan axtarış tədbirləri Koblenz prokurorluğunun 8.10.2019 tarixli ərizəsi əsasında həyata keçirilmişdir. Çünki faktlar nəticəsində araşdırma zamanı maddi sübutların aşkar olunması və müsadirəsi ehtimalı var. (Alman Cinayət Prosessual Qaydalarının §§ 94, 102, 105, 162-ci maddələri).

İndiyədək aparılan istintaq nəticəsində əldə edilən faktlar əsasında təqsirləndirilən Məmmədov barəsində gəlir əldə etmək məqsədi ilə insanların qanunsuz olaraq ölkəyə gətirilməsi, o cümlədən çirkli pulların yuyulması kimi əməllərinin olmasına dair əsaslı şübhələr var".

Həmçinin qeyd olunub ki, təqsirləndirilən şəxs, ən azı, 2015-ci ildən etibarən digər təqsirləndirilən şəxs, Xəlilbəyli ilə birlikdə, gəlir əldə etmək məqsədilə Azərbaycan vətəndaşlarına icazəsiz, pasportsuz, pasport əlavəsiz, yaşamaq hüququ olmadan Almaniyaya gəlməyə kömək etməkdə və bununla gəlir əldə etməkdə şübhəli bilinir.




*Almaniyada saxlanan müsavatçı mühacir alverçiləri barədə ŞOK FAKTLAR... Çirkli pulların yuyulmasına dair də əsaslı şübhələr var...*


Amtsgericht
Koblenz
Beschluss

Amtsgericht
Koblenz
Beschluss

2014-cü ildən etibarən təqsirləndirilən şəxs Məmmədovun özünün və ailəsinin, həmçinin digər təqsirləndirilənlər Bayraməliyev, Əkbərov və onların ailələrinin Almaniyaya qanunsuz olaraq gətirilməsi həyata keçirilib. Bunların arasında, xüsusilə Ramil Rüstəmov, Rəşad və Əziz, hər biri ailə üzvləri ilə birlikdə, Azərbaycan ərazisindən heç bir pasportu və yaşamaq icazəsi olmadan Almaniya ərazisinə daxil olmuşlar.

Bununla yanaşı, şəxsiyyəti hələlik bilinməyən 60-a qədər azərbaycanlı qanunsuz olaraq ölkəyə gətirilib. Bir neçə min avroluq ödəniş qarşılığında qanunsuz miqrantlara gəldikləri ölkədə guya siyasi təqibə məruz qalmasını sübut etmək üçün Almaniyada saxta sənədlər təqdim olunur və bu sənədlərdən qaçqın statusu almaq prosesində istifadə olunurdu.

Təqsirləndirilən Xəlilbəyli, xüsusilə bu işlərin ümumi olaraq təşkil olunmasında, ödənişin qəbul olunmasında və qaçaq gələn şəxslərlə əlaqədə olan ilk şəxs kimi tanınır. O, qaçaq miqrantlara qaçqın statusu almaq prosesi zamanı və Almaniya dövlət qurumları ilə əlaqədə necə davranılmalı olduğunu öyrədib.

Bundan əlavə o, qanunsuz miqrantların həqiqi sənədlərini özündə saxlayıb, qanunsuz miqrantların Azərbaycanda guya siyasi təqibə məruz qalmasını göstərən saxtalaşdırılmış sənədlərlə təmin etmək üçün vəziyyətdən asılı olaraq 3-cü şəxsləri, digər təqsirləndirilən Həsən və Cavadovu bu fəaliyyətə cəlb edib.

Təqsirləndirilən Məmmədov hər bir halda 2018-ci ilin payızına qədər təqsirləndirilən Xəlilbəylinin sürücüsü kimi çalışıb, hansı ki, 2015-ci ildən bəri təxminən 50 dəfə olmaqla ümumilikdə 300.000 avro məbləğində pulu təqsirləndirilən Cavadovdan təqsirləndirilən Xəlilbəyliyə çatdırıb və ümumilikdə 7 saxta sənədlə dolu paketi təqsirləndirilən Həsəndən təqsirləndirilən Xəlilbəyliyə verib.

Bununla yanaşı, o, qaçqın miqrantları hava limanında qarşılamış və ilk kontakt şəxs olan təqsirləndirilən Xəlilbəylinin təlimatlarını çatdırmışdır. Əlavə olaraq nəğd ödənişlərlə, Sparkasse və Neuvid Volksbank-dakı hesabları vasitəsilə qanunsuz miqrant alverindən əldə etdikləri gəliri ört-basdır etmişdir.

Məhkəmə qərarında vurğulanıb ki, cinayət barədə şübhələr indiyədək polis tərəfindən həyata keçirilən istintaq zamanı və o cümlədən, təqsirləndirilən Məmmədovun verdiyi faktlara əsaslanır. Bu şəxs geniş və inandırıcı məlumatlar verib və özünü böyük həcmdə məsuliyyətin altına salıb. Həmçinin onun nəzarət olunan telefon danışıqlarından (TÜ 18458, 538) üçüncü şəxslərə özünü Xəlilbəylinin sürücüsü kimi təqdim etməsi və Xəlilbəylinin hava limanından qanunsuz miqrantların qarşılamasından xəbərdar olması aydın olur.

Bundan əlavə, Məmmədov Xəlilbəylinin qanunsuz miqrant alveri ilə bağlı digər sənədləri saxladığını izah edib. (Telefon danışığı 18 924). Məmmədova məxsus bank hesabının yoxlanışı zamanı onun Sparkasse və Neuvid Bankında 2018-ci ilin noyabr və 2019-cu ilin iyun ayınadək olan müddət ərzində bir neçə on min avronun hesaba mədaxil edildiyi və qısa müddət sonra qismən hesabdan məxaric edildiyi aşkarlanıb.

**Axtarış barədə qərardad istintaqın məqsədinin təhlükəsizliyini təmin etmək məqsədilə təqsirləndirilən şəxslərin öncədən ifadəsi alınmadan verilib. Bu tədbir hüququn nisbilik prinsipinə (Verh?ltnism??igkeit-prinzip) uyğundur, çünki o, qarşıda qoyulan məqsədə çatmağa yönələn tələb olunan tədbirdir və bununla şəxsin konstitusion hüququna müdaxilə, məsələnin əhəmiyyətliliyinə və cinayətə olan şübhənin güclülüyünə nisbətdə daha üstün deyil.**

**Bu günlərdə Qarabağ Komitəsinin növbəti toplantısı keçirilib. Toplantıya bir sıra siyasi partiyalar - Müsavat Partiyası, ADP, Azadlıq Partiyası, Vətəndaş Həmrəyliyi Partiyası, KXCP, Ədalət Partiyası, AĞ Partiya, AMİP, AXP qatılıb. Sözügedən siyasi təşkilatları təmsil edənlər çıxışlar edərək müxtəlif real olmayan mülahizələr səsləndiriblər.**

# Qarabağ Komitəsi adı altında radikalların son toplantısında üç nüans - sosial tələblər uğursuz oldu, Qarabağ şüarı ilə xalqı cəlb etmək taktikası...



Qarabağ Komitəsinin son toplantısında üç nüans diqqəti çəkib. Birincisi, QK-nın toplantısını keçmiş təhlükəsizlik polkovniki İlham İsmayıl aparıb. Hansı ki, orada iştirak edən partiya sədrlərindən biri toplantını aparmalıydı. Ancaq gör bu partiya liderləri arasında necə böyük barışmaz ziddiyyətlər var ki, belə bir toplantıya onlardan birinin sədrlik etməsinə razı olmayıblar. Bütün bunlar onu göstərir ki, radikal müxalifət liderləri arasında illərdir mövcud olan ambisiyalar, mənəm-mənəmlik azalmayıb. Əksinə, daha da artıb. Sadəcə, millətin gözünə kül üfürməkdən ötrü "mehriban düşmən" olaraq bir araya gəlirlər. Bu həm də onu göstərir ki, radikal müxalifət düşərgəsinin təmsilçiləri dəyişməyib. Otuz il əvvəl necə idilərsə, indi də o cürdürlər.

İkincisi, toplantıda çıxış edən radikallar çağırışları Qarabağ şüarları üzərində qurublar. Qarabağ adından istifadə edib xalqın diqqətini çəkməyə cəhd ediblər. Bu nəyi göstərir? Bu onu göstərir ki, radikalların sosial tələbləri adı altında etdiyi çağırışlar fiaskoya uğradı. Artıq bunula onlar özləri də etiraf etdilər ki, cəmiyyət onların sosial tələblərlə bağlı çağırışlarına aldanmır. Belə olmasaydı, o zaman radikallar ciddi sosial dəstək tapardılar. Bu isə baş vermədi. Ona görə də radikal müxalifət Qarabağ şüarı adı altında millətin həssas duyğularını istismar etmək istəyir. Necə ki, milli azadlıq hərəkatı dövründə bunu etdilər. Ancaq hazırda bu mümkün deyil. Ona görə ki, radikal müxalifət Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı alternativ və cəlbedici variant ortaya qoya bilməyib.

Ən nəhayət, üçüncüsü, toplantıda çıxış edənlər belə bir fon yaratmağa çalışıblar ki, guya oradakı siyasi təşkilatların hər birinin çoxsaylı tərəfdarı var. Guya bu partiyalar birləşsə, ciddi güc olaraq ortaya çıxacaqlar. Cəmiyyətdə onların birləşməsinə ciddi sosial sifariş var. Hansı ki, ADP-nin konfrans zalı 224 nəfər adam tutur. Sözügedən toplantıda bir elə partiya zalın heç yarısını doldura bilmədi. Bu onu göstərdi ki, orada iştirak edən partiyaların bir çoxunun heç barmaqla sayıla biləcək qədər üzvü yoxdur. Həmin partiyalar bir sədrdən ibarətdir, bir də partiya nizamnaməsini əks etdirən papkadan. Sözügedən təşkilatların birləşib-birləşməməyi heç nəyi dəyişmir.

**Bütün bunlar onu göstərir ki, radikal müxalif düşərgənin iflası geri dönməz tarixi prosesdir. Azərbaycan xalqı bir daha onların arxasınca getməyəcək. Çünki onların necə səriştəsiz olduğunu, öz şəxsi maraqlarını milli maraqlardan üstün tutmalarını xalq yaxşı bilir. Yaxın tarixdə bununla bağlı çoxsaylı sübut var.**

***Vidadi ORDAHALLI***

---

**Əli Kərimli yeni ssenarini işə salıb. Budəfəki oyun Tofiq Yaqublunun üzərində qurulub. Hələ Müsavatın qurultayı ərəfəsində belə bir projenin işləndiyi məlum idi. Bildirilirdi ki, Əli Kərimli Tofiq Yaqublunun əli ilə Müsavat Partiyasını ələ almağa çalışır.**

# Cəmil Həsənlinin Milli Şuradan "can qurtarması" və Tofiq Yaqublunun irəli verilməsi planı...



***Arif Hacılı:*** *"...Milli Şuranın sədri olsa, yenə eyni məqsədlə o təşkilatdan daha çox Müsavatı təbliğ edəcək"*

***Rəfail Becanov:*** *"...indi də Tofiq Yaqublunu xərcləməyə hazırlaşır"*

Təsadüfi deyil ki, məhz qurultay ərəfəsində Tofiq Yaqublu AXCP-nin icazəsiz aksiyalarında görünürdü və özünü daha çox həmin partiyanın funksioneri kimi aparırdı. Ə.Kərimliyə yaxınlığı ilə seçilən bloger və səhifələr onun aktiv təbliğatını aparırdılar. Ə.Kərimli onu Müsavata başqan seçdirə bilmədi. Sonra T.Yaqublu icazəsiz aksiyada Ə.Kərimlinin qoluna girərək, meydana doğru irəlilədi və ictimai asayişi pozduğuna görə bir ay müddətinə inzibati həbsə məhkum olundu. T.Yaqublunun həbsdə olduğu dönəmdə Ə.Kərimli dəfələrlə çağırış etdi ki, hamı onun şəklini profilinə qoysun, həmin şəxs barədə statuslar yazsınlar. Maraqlıdır ki, Ə.Kərimli bu cür aktiv təbliğatı həbsdə olan AXCP funksionerləri Seymur Həzi, Fuad Qəhrəmanlı ilə bağlı yox, məhz T.Yaqublu üzərində qurdu.

Artıq yeni ssenarinin nədən ibarət olduğu bəllidir. Ə.Kərimli radikal mövqeyi ilə seçilən T.Yaqublunu özünün orbitində olan Milli Şuraya sədr gətirmək istəyir. Bu planın ilk cücərtiləri Cəmil Həsənlinin yazdığı statusda özünü göstərdi: "Biz isə belə hesab edirik ki, hazırda hakimiyyətə qarşı mübarizənin aparıcı simalarından birinə çevrildiyindən, Tofiq bəy Milli Şuranın sədri vəzifəsinə irəli çəkilməyə layiqdir.

Biz hamımız onun sədrliyi altında, onunla çiyin-çiyinə bu antimilli rejimə qarşı birlikdə mübarizə aparmaqdan məmnun olardıq. Tofiq bəy bu etimadı xalqa, millətə, vətənə təmənnasız xidməti, ardıcıl mübarizəsi və fədakarlığı ilə qazanıb".

T.Yaqublunun hazırda təmsil olunduğu Müsavat Partiyasının başqanı Arif Hacılı bu təklifə münasibət bildirib: "Hər kəsə məlumdur ki, T.Yaqublu Müsavat və Milli Şuranın, AXCP-nin daha sıx əməkdaşlığının, müttəfiqliyinin tərəfdarıdır. Ümid edirəm ki, Tofiq bəy əvvəllər bu məqsədlə Müsavatdan daha çox Milli Şuranı təbliğ edirdisə, Milli Şuranın sədri olsa, yenə eyni məqsədlə o təşkilatdan daha çox Müsavatı təbliğ edəcək".

Qeyd edək ki, hələlik T.Yaqublu bu mövzu ilə bağlı açıqlama verməkdə maraqlı olmadığını göstərir. Bizim də bu yöndə verdiyimiz suala cavab vermək istəmədiyini dedi. Maraqlıdır, C.Həsənlinin postundan tələsik imtina etmək istəyi, A.Hacılının isə T.Yaqublu ilə vidalaşmaqda maraqlı olduğunu ifadə edən açıqlaması, sədrliyə namizəd göstərilənin isə susqun mövqeyi nəyin əlaməti hesab edilə bilər?

AXCP adına iddialı olan digər qanadın funksioneri Rəfail Becanov "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, belə bir plan əvvəldən mövcud olub: "Yadınızdadırsa, hələ Müsavatın qurultayına hazırlıq gedən ərəfədə belə bir məlumat dövriyyəyə buraxıldı ki, T.Yaqublu Müsavata başqan seçilməsə, Milli Şuraya rəhbər gətirilə bilər. Bəllidir ki, bütün bu layihələri cızan Ə.Kərimlidir. Həmin vaxt C.Həsənlidən belə mövqe ona görə tələb olunmadı ki, birdən T.Yaqublunun əli ilə Müsavatı ələ keçirmək mümkün olar. Ə.Kərimlinin planı bu idi ki, özünün rəhbərlik etdiyi quruma, Milli Şuraya və Müsavata nəzarəti ələ keçirsin. Bu plan alınmayanda C.Həsənliyə belə bir fikri söylətdirdi. Əminliklə deyə bilərəm ki, bütün bunlar Ə.Kərimlinin diqtəsi ilə baş verir. Məhz T.Yaqublunun üzərində təsadüfən dayanılmayıb. Həmin persona bir qədər radikal mövqeli şəxs kimi tanınır. Ə.Kərimli 19 oktyabr aksiyasından sonra bu fikrində daha qəti olmağa başladı. Çünki o, həmin hadisələrdən sonra böyük sarsıntı və qorxu keçirib. Bu səbəbdən də meydanda aksiyaların önündə gedə biləcək bir şəxsi özünə əvəz axtarır. Qəti qərara gəlib ki, bundan sonra icazəsiz aksiyaların önünə çıxmasın. Bunun üçün də ən yaxşı namizəd olaraq T.Yaqublunu görür. Bir az loru dillə desək, indi də T.Yaqublunu xərcləməyə hazırlaşır. Çünki onun xislətində belə bir niyyət var : "kimdən nə qədər bacarırsansa, o qədər də istifadə et". Gələcək üçün beynində hesabladığı aksiyalar üçün önə T.Yaqublunu verəcək. Düşünmürəm ki, onların bu ittifaqı uzun sürə bilər. İnanmıram ki, T.Yaqublu Ə.Kərimlinin bütün istəklərini canla-başla yerinə yetirməyə hazır olsun. İndiki vəziyyətdə isə bu tandem üçün birlik bir qədər cazibədar görünür".

***Məhəmmədəli QƏRİBLİ***

# Heydər Əliyev gəldi, milli azadlıq hərəkatının mərkəzi Bakıdan Naxçıvana köçdü və... YAP yarandı

**Azərbaycan Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi, tarix elmləri doktoru, professor Əli Həsənov özünün facebook səhifəsində Yeni Azərbaycan Partiyasının yaranmasının 27-ci ildönümü ilə bağlı status paylaşıb. "Yeni Azərbaycan Partiyası niyə və necə yarandı?" başlıqlı, "21 noyabr 1992-ci il Azərbaycanda YAP-ın və sivil müxalifətçilik ənənəsinin yaranma tarixi" yarımbaşlıqlı paylaşımında professor yazır:**

Dəyərli oxucular! Bir müddət əvvəl yazdığım statuslardan birində qeyd etmişdim ki, 20 yanvar 1990-cı ildə Bakıda sovet qoşunları tərəfindən törədilən qanlı hadisələrin səbəbkarı olan SSRİ və Azərbaycan rəhbərliyini növbəti gün Moskvadakı Daimi Nümayəndəliyə gələrək açıq formada ittiham edən Heydər Əliyev sonrakı günlərdə Kremlin ciddi təzyiqləri altında öz doğma vətəninə - Azərbaycana qayıtdı.

Ayaz Mütəllibov hökuməti ona Bakıda yaşamaq imkanı vermədiyi üçün 1990-cı il iyulun 22-də, yəni Moskvadan qayıtdıqdan cəmi iki gün sonra paytaxtı tərk edərək Naxçıvana üz tutdu. 1990-cı ilin avqust ayında qədirbilən Naxçıvan əhalisi təşəbbüs göstərərək, Heydər Əliyevi həm Azərbaycan SSR Ali Sovetinə, həm də Naxçıvan MSSR Ali Sovetinə deputat seçdi. MR Ali Sovetinin 1990-cı il noyabrın 17-də keçirilən birinci sessiyasına Heydər Əliyevin təşəbbüsü ilə Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının adından "sovet" və "sosialist" sözləri çıxarıldı. Naxçıvan MSSR Ali Sovetinin adı dəyişdirilərək Naxçıvan Muxtar Respublikasının Ali Məclisi adlandırıldı. Ali Məclisin birinci sessiyasında, həmçinin, Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli, ay-ulduzlu bayrağının Naxçıvan Muxtar Respublikasının dövlət bayrağı kimi qəbul edilməsi haqqında qərar qəbul olundu və Azərbaycanın ali hakimiyyət orqanı qarşısında məsələ qaldırıldı ki, Azərbaycan Respublikasının dövlət rəmzləri haqqında analoji qərarlar qəbul edilsin. Heydər Əliyevin təşəbbüsü ilə qəbul edilən bu tarixi qərarlar və müstəqillik istiqamətində həyata keçirilən sonrakı proseslər, o cümlədən 1991-ci il sentyabrın 3-də onun Naxçıvan Ali Məclisinin sədri seçilməsi belə deməyə əsas verir ki, həmin dövrdə Heydər Əliyevin Naxçıvana gəlişi ilə Azərbaycan xalqının milli azadlıq hərəkatının mərkəzi Bakıdan Naxçıvana keçdi və bu hərəkatın lideri də məhz Heydər Əliyev oldu. Sonrakı proseslərdə Heydər Əliyevin deputat kimi nümayiş etdirdiyi ardıcıl və mübariz vətəndaşlıq mövqeyi, Azərbaycanın müstəqilliyi uğrunda ölkə parlamentinin tribunasından etdiyi qətiyyətli çıxışlar, ümummilli problemlərin həllinə xidmət edən səmərəli təklifləri onu tezliklə milli azadlıq hərəkatının gerçək liderinə çevirdi.

Milli azadlıq hərəkatının mərkəzinin Bakıdan Naxçıvana keçməsi və hərəkatın başında Heydər Əliyev kimi təcrübəli liderin - görkəmli siyasi və dövlət xadiminin dayanması qısa zaman kəsiyində Azərbaycan cəmiyyətində milli qurtuluş ideyası ətrafında böyük təmərküzləşməyə səbəb oldu. Belə ki, əhalinin bütün təbəqələri, xüsusilə də mütərəqqi ziyalılar, hətta ciddi təqibə məruz qalmış AXC fəallarının böyük bir qismi Heydər Əliyevin ətrafında cəm oldular. Bu reallıq xalq hərəkatına həqiqi mütəşəkkillik, ardıcıllıq və vətəndaş birliyi ruhu gətirdi, Azərbaycan xalqı milli müstəqilliyin əleyhinə məqsədyönlü fəaliyyət göstərən Mütəllibov rejiminə qarşı vahid cəbhədən çıxış etməyə başladı. Heydər Əliyev Azərbaycan Ali Sovetindəki "demblok" nümayəndələrini də milli azadlıq hərəkatı ideyası altında öz ətrafında birləşdirərək, yerli kommunist hökumətinin iradəsini sındıraraq, oktyabrın 18-də müstəqillik haqqında Konstitusiya Aktının qəbul edilməsinə və müstəqillik məsələsinə dair yeni referendumun təyin edilməsinə nail oldu. Bundan əvvəl ümummilli lider Azərbaycan rəhbərliyinin SSRİ-nin saxlanması ilə bağlı yeni ittifaq müqaviləsinə qoşulma cəhdinə də hamıdan qabaq - 1991-ci il martın 7-də Azərbaycan Ali Sovetinin sessiyasındakı çıxışında ciddi etiraz etmiş və Mütəllibov hakimiyyətinin Azərbaycanı yeni ittifaqın tərkibinə daxil etməsinin, bunun üçün respublikada xüsusi referendum keçirilməsinin qəti əleyhinə olduğunu birmənalı şəkildə bəyan etmişdi.

Beləliklə, bütün bu proseslərin nəticəsi olaraq kommunistlərin təkidlə həyata keçirmək istədiyi həm "yenilənmiş SSRİ müqaviləsi" layihəsi, həm də nüfuzdan düşmüş yerli kommunist hökumətinin özü iflasa uğradı. Cəbhə-Müsavat dairələri ölkədə kommunist rejiminin mövcud acınacaqlı vəziyyətindən istifadə edərək, silahlı yolla rəhbərliyi devirdi və hakimiyyəti ələ aldı. O dövrdə milli-demokratik hərəkat rəhbərləri azadlıq və demokratiya prinsiplərinə, respublikada yenicə yaranmaqda olan milli birlik və ədalətli seçki normalarına zidd hərəkət edərək, Heydər Əliyev kimi təcrübəli bir liderin demokratiya və milli azadlıq mübarizəsi istiqamətindəki xidmətlərinə qarşı çox ədalətsiz gediş etdilər. 1992-ci il mayın 18-də Ali Sovetə sədr seçkisində AXC rəhbərliyi, deputatların böyük hissəsinin və ölkə ictimaiyyətinin tələbinə baxmayaraq, Heydər Əliyevin namizədliyinin irəli sürülməsinə, hətta parlamentdən onunla əlaqə yaradılmasına ciddi mane oldular. Onlar öz namizədlərinin sədr "seçilməsinin" hansısa doqquz xarici dövlətlə razılaşdırılması barədə cəfəng antidemokratik fikirlər səsləndirərək, öz iddialarını reallaşdırdılar. Hakimiyyətə tam yiyələndikdən sonra bu dairələr gələcəkdə Heydər Əliyevi özlərinə ciddi rəqib sayaraq, bütün vacib işlərini bir kənara qoyub onunla qeyri-qanuni və antikonstitusion mübarizəyə başladılar, dəfələrlə Naxçıvanda dövlət çevrilişinə, Ali Məclis sədrinin fiziki varlığına son qoymağa cəhd göstərdilər. Belə qeyri-demokratik və antimilli vasitələrlə fəaliyyət göstərən AXC-Müsavat cütlüyünün birillik hakimiyyəti dövründə Azərbaycanın müstəqilliyinə, dövlətçiliyinə, milli-vətəndaş birliyi ideyasına böyük zərbə vuruldu, ölkə vətəndaş müharibəsi həddinə sürükləndi. Mövcud hakimiyyətin yarıtmaz siyasətinin nəticəsi olaraq gündən-günə kəskinləşən vətəndaş qarşıdurmasını açıq şəkildə müşahidə edərək, yaxınlaşan milli fəlakəti hamıdan qabaq duyan və buna müqavimət göstərməyi qarşılarına məqsəd qoyan bir qrup vətənpərvər ziyalı 1992-ci il oktyabrın 16-da Heydər Əliyevə müraciət ünvanladı. Müraciətdə ziyalılar Azərbaycanı düçar olduğu fəlakətli böhrandan çıxarmaq məqsədilə ölkədə bütün xalqı, sağlam düşüncəli bütün qüvvələri öz ətrafında birləşdirə bilən yeni bir siyasi ümumxalq partiyasının yaradılması və ona rəhbərlik etməsi məsələsinə münasibət bildirməyi Heydər Əliyevdən xahiş edirdilər. Respublikada gündən-günə kəskinləşən və getdikcə daha da fəlakətli vəziyyət alan daxili ictimai-siyasi və milli vətəndaş qarşıdurması fonunda Azərbaycanı canı qədər sevən bir lider olaraq, Heydər Əliyev, əlbəttə ki, çoxsaylı ölkə ziyalılarının, geniş xalq kütlələrinin tələblərini cavabsız qoya bilməzdi. Belə də oldu, cəmi bir həftə sonra - oktyabrın 24-də "Səs" qəzetində ölkə ziyalılarının müraciətinə Heydər Əliyevin cavabı dərc olundu. Bu, əslində adi bir cavab deyildi, Azərbaycanın mövcud fəlakətli vəziyyətinin hərtərəfli təhlili və ondan çıxış yollarını göstərən ciddi bir milli fəaliyyət proqramı idi.



Sonrakı prosesləri hörmətli oxucuların yadına salmaq istəyirəm: Heydər Əliyevin qurub-yaratdığı və demək olar ki, bütün geniş iclas salonlarını inşa etdiyi Bakı şəhərində onun adı ilə yaradılan partiyaya qurultay keçirməyə yer və imkan verilmədi. Odur ki, ölkənin dörd bir yanından Naxçıvan şəhərinə axışan ziyalılar, partiya qurucuları soyuq və şaxtalı 21 noyabr günündə Yeni Azərbaycan Partiyası (YAP) adlanan siyasi təşkilatı təsis etdilər. Cəmi 7 ay sonra, 1993-cü ilin iyununda xalqın tələbi ilə ümumxalq partiyasının sədri, Azərbaycan xalqının görkəmli lideri Heydər Əliyev siyasi hakimiyyətə qayıtdı. Onun qayıdışı ilə ölkənin bütün sağlam qüvvələri, ictimai-siyasi və mənəvi potensialı hakimiyyət ətrafında səfərbər edilərək Azərbaycanı sonrakı labüd iflasdan xilas etdilər.

Heydər Əliyev 1993-2003-cü illərdə Azərbaycan Respublikasının Prezidenti kimi xalqına arxalanaraq və YAP sədri kimi partiyasının kadr potensialına söykənərək, özünün zəngin dövlətçilik təcrübəsini və uzaqgörən siyasətini tətbiq edərək çox qətiyyətli, müdrik, effektli idarəçilik həyata keçirdi. Azərbaycanın dövlət müstəqilliyini və milli inkişafını təmin etdi, respublikada demokratik dövlət quruculuğu, siyasi plüralizm, vətəndaş cəmiyyəti və bazar iqtisadiyyatı normalarını dönməz hala gətirdi, ölkəni dinamik inkişaf yoluna çıxardı və öz adını xalqımızın dövlətçilik tarixinə müstəqil, demokratik Azərbaycan dövlətinin BANİSİ və LİDERİ kimi həkk etdi.

Ulu öndərin haqq dünyasına qovuşmasından keçən 16 il ərzində Azərbaycanda Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən qətiyyətli siyasət, görülmüş nəhəng işlər, qazanılmış böyük uğurlar bu gün Azərbaycan xalqı tərəfindən məmnunluqla qarşılanır və tam dəstəklənir. Keçirilən sorğuların nəticələri göstərir ki, xalqın dəstəyi ölkə prezidenti və YAP sədri kimi cənab İlham Əliyevə müstəqil, prinsipal və milli maraqları ifadə edən qətiyyətli siyasət yürütməyə hərtərəfli imkan verir. Belə liderə və onun müzəffər partiyasına qalib gəlmək heç bir qüvvəyə, ələlxüsus da hazırkı radikal müxalifətə nəsib olmayıb, bundan sonra da olmayacaq. Hazırda Yeni Azərbaycan Partiyası öz liderinin siyasi islahat kursuna, irəli sürdüyü təşəbbüslərə və yeni dövrün çağırışlarına uyğun olaraq partiyanın vitrinini xeyli dərəcədə yeniləmiş, öz sıralarına çoxsaylı təşəbbüskar və fəal üzvlər, təşkilatı hakimiyyətdə və parlamentdə təmsil edə biləcək yeni-yeni intellektual kadrlar cəlb etmişdir. Bir sözlə, Yeni Azərbaycan Partiyası ümummilli liderin siyasi ənənələrinə söykənərək "daim yenilənmə, daim dəyişmə və daim inkişaf etmə" kursunu ardıcıl olaraq davam etdirmişdir.

Beləliklə, müstəqillik dövrünün tarixi, yaşadığımız hər bir gün ulu öndərin söylədiyi müdrik bir kəlamı - "zaman hər şeyi öz yerinə qoyur!" ifadəsini bir daha təsdiq edir.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**




# Naxçıvan... Ordusunun gücü barədə Prezidentin mesajlarına İrəvandan təlaş reaksiyaları...

*Ermənistanın üç istiqamətdən zərbələrə duruş gətirməməsi, "Türkiyə Suriyada ikən Naxçıvanı vuraq" eyforiyası...*

**Bu gün Azərbaycan ordusunun malik olduğu imkanlar ona düşmənin istənilən texnika və hissəsini kifayət qədər uzaq məsafədən tam şəkildə məhv etməyə imkan verir. Təkcə zəbt edilmiş ərazilərmizdə yox, eyni zamanda Ermənistan ərazisində istənilən təhdid yaradan obyekti də ordumuz çox asanlıqla məhv edə bilən texnikalara malikdir.**

Xüsusən də Naxçıvan istiqamətində Azərbaycan qısa zaman kəsiyində Ermənistanın hərbi obyektlərini çox qısa zaman kəsiyində darmadağın edə bilər.

Erməni mediası da yazır ki, Azərbaycan Naxçıvanda müxtəlif İsrail və Rusiya reaktiv sistemlərini quraşdırıb. Buradan isə cəmi 42 kilometr aralıda yerləşən İrəvanı bu və digər silahlar vasitəsilə vurmaq mümkündür. Qeyd edək ki, Azərbaycanın indi də Naxçıvanda mövqelərini daha güclü hala gətirməsi Ermənistanda ciddi narahatlıqla qarşılanır. Xatırladaq ki, bü günlərdə Prezident İlham Əliyev Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbovu qəbul edərkən də bu məsələyə xüsusi toxundu: "Naxçıvan Muxtar Respublikasının inkişafı daim diqqət mərkəzindədir. Respublikada gedən abadlıq-quruculuq işləri məni çox sevindirir. Naxçıvan son illər ərzində böyük dərəcədə inkişaf etmişdir, həm sosial sahədə, iqtisadi sahədə, sənaye potensialının möhkəmləndirilməsi istiqamətində böyük addımlar atılmışdır. Bu çox sevindiricidir. Xüsusilə nəzərə alsaq ki, Naxçıvan uzun illər ərzində mühasirə şəraitində yaşayır, üç tərəfdən düşmənlə əhatə olunub. Buna baxmayaraq, respublika yaşayır, güclənir və böyük inkişaf yolunu davam etdirir.

Çətin coğrafi vəziyyəti nəzərə alaraq, ilk növbədə, Naxçıvanda təhlükəsizlik tədbirləri diqqət mərkəzindədir. Son illər ərzində bu istiqamətdə böyük işlər görülüb, ordu quruculuğu sahəsində böyük inkişaf var. Bu gün Naxçıvan ordusu ən müasir silahlarla təchiz edilib, texnikanın alınması təşkil olunub və bu proses davam etdirilir". Dövlət başçısı burada hərbi potensialın möhkəmləndirilməsi üçün bütün lazımi işlərin görüləcəyini də vurğuladı. Qeyd etdi ki, çətin coğrafi vəziyyəti nəzərə alınaraq, bu gün ilk növbədə Naxçıvanda təhlükəsizlik tədbirləri diqqət mərkəzindədir. Xatırladaq ki, bu vaxta qədər də muxtar respublikanın hərbi təhlükəsizlik sistemini daha da gücləndirmək üçün tarixi əhəmiyyətə malik qərarlar qəbul olunub, lazımi addımlar atılıb. Bu baxımdan ölkə rəhbərinin "Azərbaycan Respublikası Müdafiə Nazirliyi haqqında Əsasnamənin təsdiq edilməsi barədə" 2013-cü il tarixli fərmani diqqəti cəlb edir. Həmin dövlət sənədinə əsasən, 5-ci Ordu Korpusunun əsasında Əlahiddə Ümumqoşun Ordunun yaradılması Naxçıvanın müdafiə qabiliyyətini daha da artırıb, bir mərkəzdən idarəetmə təkmilləşdirilib və nəticədə, daha effektiv müdafiə sistemi qurulub. Bu gün Əlahiddə Ümumqoşun Ordu əməliyyat-taktiki baxımdan yüksək döyüş hazırlığına malik olmaqla yanaşı, həm də muxtar respublikanın hakim yüksəkliklərində etibarlı müdafiə sistemi qurub. 2018-ci ilin may ayında Günnüt zəfərinin qazanılması düşmənin hərəkət imkanlarını daha da məhdudlaşdırıb, istənilən təxribatlara qarşı adekvat cavab vermək imkanı artıb. Ordunun ətrafdakı ərazilərə maneəsiz nəzarət etməsi ona həm də istənilən hədəfi dəqiqliklə yox etmək imkanı verir. Bütün bunların nəticəsidir ki, erməni hərbçi Norat Ter-Qriqoryans Naxçıvanın Ermənistan üçün ciddi təhdid mənbəyi olduğunu vurğulayır. Onun sözlərinə görə, Qarabağda yeni savaş başlasa, Azərbaycan Naxçıvan tərəfdən də Ermənistanı əzməyə çalışacaq. O xatırladır ki, Naxçıvanda indi texnika və silahlar çox yenidir. Bu səbəbdən də Azərbaycan ordusunun Naxçıvan istiqamətində əldə etdiyi uğurlar erməniləri ciddi narahat edir. Bundan irəli gəlir ki, bəzi erməni media orqanlarında İrəvanın diqqətini daha çox Naxçıvana yönəltməsinin vaciblyi barədə fikirlər də yer alır. Hətta bəzi enməni hərbi ekspertlər türk ordusunun başının Suriyada antiterror əməliyyatlarına qatıldığı bir vaxtda Naxçıvana hücum etmək barədə sərsəm fikirlər də səsləndirir. Hərbçi ekspert Abuzər Əbilov isə qeyd edir ki, Ermənistanın hərbi-siyasi rəhbərliyi ara-sıra absurd bəyanatlar verməklə ictimaiyyətin diqqətini bu ölkədə hökm sürən ciddi sosial-iqtisadi problemlərdən yayındırmaq məqsədi güdür: "O ki qaldı, erməni tərəfinin Suriya məsələsindən istifadə edib, Naxçıvana hücum edərək zəbt etməklə bağlı səsləndirdiyi fikirlərə, qeyd etməliyəm ki, əslində bu, Ermənistan rəhbərliyinin dövlət başçısı İlham Əliyevin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbovu qəbul edərkən ordumuzun Naxçıvan istiqamətində mövqelərinin möhkəmləndirilməsi məsələsinin müzakirəsindən irəli gələn narahatlıqların təzahürüdür. İşğalçı ölkənin hərbi-siyasi rəhbərliyi yaxşı bilir ki, son zamanlar ordu quruculuğu sahəsində aparılan genişmiqyaslı islahatlar çərçivəsində Azərbaycan Ordusunun digər bölmələri ilə yanaşı, Naxçıvanda yerləşən Əlahiddə Ümumqoşun Ordusu da ən yeni, müasir silah və hərbi texnika ilə təchiz edilib. Əlahiddə Ümumqoşun Ordunun sərəncamında olan silahlar Ermənistan, xüsusilə də İrəvan ərazisində olan istənilən dövlət və strateji əhəmiyyətli, o cümlədən hərbi təyinatlı obyektlərin yüksək dəqiqliklə məhv edilməsinə imkan verir. Erməni tərəfi bilməlidir ki, bugünkü Azərbaycan ordusu nəinki Naxçıvanı müdafiə etməyə, hətta Zəngəzuru və bu gün Ermənistan ərazisində yerləşən digər işğal olunmuş torpaqlarımızı da azad etməyə qadirdir.

Günnüt əməliyyatı zamanı əldə edilən nailiyyətlər bir daha əyani şəkildə sübut etdi ki, Əlahiddə Ümumqoşun Ordusunun bölmələri Naxçıvan istiqamətində istənilən əməliyyatı ən yüksək səviyyədə həyata keçirə bilər. Ermənistan hakimiyyəti çox yaxşı anlayır ki, Günnüt əməliyyatından sonra bölmələrimiz bu ölkənin hansı ərazilərinə və strateji əhəmiyyətli magistral xətlərinə nəzarəti ələ keçirib. Bu baxımdan onların narahatlıqları anlaşılandır".

Digər ekspertlər də ermənilərin Naxçıvan qorxusunun əbəs olmadığını bildirir. Məsələ burasındadır ki, Naxçıvan Əlahiddə Ümumqoşun ordusunun istifadəsində olan silahlar bütün erməni ordusunu diz çökdürməyə imkan verir. Həmin silahlar özlərinin taktiki və texniki xüsusiyyətlərinə görə 4 və 5-ci nəsil silahlar sayılır. Onların arasında uzaq mənzilli raketlər, idarə olunan raketlər də yer almaqdadır. Məsələn, İsraildən və Rusiyadan alınan "Spike"lar, "Xrizantema-S" burada düşmən üzərində ciddi üstünlüklər əldə olunmasına imkan verir. Naxçıvanda yerləşdirilən "Smerç" yaylım atəşli reaktiv sistemlər və T-300 "Qasırğa" raket artilleriya sistemləri, o cümlədən İsrail istehsalı olan "Qrad LAR-160" və keçmiş sovetlər dönəmində istifadə olunan "Qrad", Türkiyə istehsalı olan, atış məsafəsi 40 kilometr təşkil edən T-122 "Sakarya" yaylım atəşli reaktiv sistemləri də düşmən üçün böyük kabusdur. "Smerç" və "Qasırğa" sistemləri ilə Naxçıvan ordusu nəinki İrəvanı vura bilər, hətta Dağlıq Qarabağ ərazisindəki hədəfləri, məsələn, Laçın dəhlizini, Ermənistan ordusunun işğalı altındakı Qubadlı, Laçın və Zəngilandakı hərbi düşərgələri dəqiqliklə məhv etmə imkanına malikdir. Burada ordunun ixtiyarına verilən BTR-82 zirehli transportyorları, TOS-1A ağır reaktiv odsaçanları, T-90 tankları, BMP-3 piyada döyüş maşınları Naxçıvanın müdafiəsini gücləndirir, həmin istiqamətdə düşmən üzərində üstünlüyü artırır.

Digər tərəfdən xatırladaq ki, 2013-ci ildə Əlahiddə Ümumqoşun Ordusu yarandıqdan sonra burada hərbi struktur böyüdü və dəyişildi. Məsələn, aviasiya dəstəsi formalaşdırıldı, 2014-cü ildə muxtar respublika ərazisinə Mi-35M zərbə helikopterləri, daha sonra Su-25 döyüş təyyarələrindən ibarət eskadrilya Naxçıvanda yerləşdirildi. Burada ordu həm də müasir PUA-larla təchiz olunub. Azərbaycan Silahlı Qüvvələrində "Orbiter-3" kiçik taktik PUA-lar ilk dəfə Əlahiddə Ümumqoşun Ordunun istifadəsinə verilib. Bütün bunları Ermənistan tərəfi də aydın görür və bu səbəbdən onların Naxçıvan təlaşı haradasa başadüşüləndir. Reallıq budur ki, Qarabağ savaşı yenidən başlasa, Azərbaycanın Ermənistana üç istiqamətdə cəbhə açmaq imkanı var. Birinci, təbii ki, Qarabağ, Araz çayından Murovdağa və Murovdağ silsiləsi boyunca dövlət sərhədinə qədər olan ərazilərdir. İkincisi Naxçıvan, üçüncüsü isə Murovdağdan Gürcüstanla dövlət sərhədinədək olan yerlərdir. Ekspertlər bildirir ki, Ermənistan rəhbərliyi bu gün əhalisinin uşaqlı-böyüklü hamısının əlinə silah versə belə, üç cəbhədə müharibə apara biləcək gücə malik deyil. Azərbaycan isə bu gün mövcud ordusu ilə, yəni səfərbərlik elan etmədən belə, bu üç cəbhəni aça biləcək imkanlara sahibdir.

Qeyd edilənlər mümkün savaş zamanı Azərbaycanın malik olduğu üstünlükləri də aydın təsəvvür etməyə imkan verir.

Bu durumda Naxçıvanın coğrafi mövqeyi, strateji əməliyyatda rolu Ermənistanın paytaxtından tutmuş, bütün digər ərazilərinin hədəfə alınması imkanlarıAzərbaycan üçün çox vacib amildir.

**Bu səbəbdəndir ki, Naxçıvan bütün mənalarda işğalçı ölkənin qorxulu röyasına çevrilib. Digər tərəfdən xatırladaq ki, bölgə Qars müqaviləsinə görə Türkiyənin təminatı altındadır və Qarabağda müharibə başlasa, Ermənistana qarşı olduqca təhlükəli ikinci cəbhə açıla bilər. Bundan irəli gəlir ki, Naxçıvanda Azərbaycan və Türkiyənin ikitərəfli hərbi əməkdaşlığı da Ermənistanda ciddi təhdid sayılır.**

*Tahir TAĞIYEV*

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

# Milli turizmimizin inkişafında böyük əngəllər...

**Dövlətin xüsusi dəstəyi sayəsində ölkədə sürətlə inkişaf edən sahələrdən birinin turizm sektoru olması artıq heç kimə sirr deyil. Görülən tədbirlər ölkəyə uz tutan əcnəbilərin sayının əhəmiyyətli dərəcədə artmasına təkan verib. Hesablamalara görə, bu ilin yanvar-oktyabr aylarında ölkəmizə təşrif buyuran xarici ziyarətçilərin sayı ötən ilin eyni dövrü ilə müqayisədə10,9 faiz artaraq 2,7 milyon nəfər olub.**

Ölkədə qış turizminə start verilməsi fonunda isə ilin sonuna kimi Azərbaycana gələn turistlərin sayının 3 milyonu keçməsi gözlənir ki, bu da turizm tarixində növbəti rekord sayılır.

Bununla yanaşı, hesablamalar göstərir ki, ölkədə turistlərin xərclədiyi vəsait ilin sonuna kimi 2,5 milyard dolları keçəcək. Bu da qeyri-neft sektorunun mühüm bir qolu kimi turizmin ölkəyə böyük həcmdə vəsait qazandırmasının daha bir təsdiqidir. Qeyd edilənlər həm də onun göstəricisidir ki, turizm sənayesi Azərbaycanda özünün yüksəliş mərhələsini yaşayır.

Qeyd edək ki, bir çox ölkələrin gəlirlərinin formalaşmasında turizm mühüm yer tutur. Məsələn, ABŞ, Fransa, İspaniya, Türkiyə, İtaliya, digər Avropa və Şimali Amerika ölkələrində hər il turizmdən on milyardlarla dollar həcmində gəlir əldə olunur. Beynəlxalq təcrübədən də aydın olur ki, ölkələrin istehsal potensialı, gəlirlilik səviyyəsi və məşğulluğunun artırılmasında turizm sektorunun əhəmiyyətli təsiri var. Ümumdünya Turizm Təşkilatının proqnozlarına əsasən, beynəlxalq turizm sənayesinin davamlı inkişafı nəticəsində xarici turistlərin sayı ildə orta hesabla 43 milyon nəfər artmaqla, 2030-cu ilədək 1,8 milyard nəfərə çatacaq. Bu proqnozlardan da aydın görünür ki, turizmin iqtisadiyyatdakı çəkisinin əhəmiyyəti artır. Bütün bunlar nəzərə alınaraq turizm sahəsinin sosial-iqtisadi inkişafın əsas təkanverici qüvvələrindən birinə çevrilməsi, yuxarıda qeyd olunduğu kimi, Azərbaycan üçün də prioritetdir. Artıq son illər dövlət səviyyəsində bu sahənin inkişaf etdirilməsi istiqamətində reallaşdırılan məqsədyönlü tədbirlər öz müsbət təsirlərini göstərməkdədir. Xüsusən də 2015-ci ildə bu sektorda sahibkarlıq fəaliyyəti üçün lisenziya tələbinin ləğv edilməsi, 2016-cı ildə "Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi"nin qəbul edilməsi, elektron vizaların verilməsi prosedurunun sadələşdirilməsi və "ASAN Viza" sisteminin yaradılması turizm sahəsinin inkişafı üçün mühüm təkan sayılır.

Dövlət Turizm Agentliyinin xəttilə müxtəlif ölkələrdə Azərbaycan turizminin təşviqi də öz nəticələrini verir. Onu da bildirək ki, Dövlət Turizm Agentliyinin turizm strategiyasına uyğun olaraq Rusiya, Türkiyə, Çin, Böyük Britaniya, Gürcüstan, Sinqapur, Latviya, Cənubi Koreya, Almaniya, Hindistan, Vyetnam, Mərkəzi Asiya və Yaxın Şərq ölkələri ilə turizm sahəsində ikitərəfli əməkdaşlıq üçün qarışlıqlı səfərlər təşkil olunur, müvafiq danışıqlar aparılır. Ölkəmizin turizm potensialının sürətli təbliği və ondan istifadə imkanlarının təşviq olunması üçün artıq 6 xarici ölkədə turizm nümayəndəliyi fəaliyyət göstərir. Görülmüş işlərin nəticəsidir ki, Azərbaycana gələn turistlərin sayında ilbəil artım müşahidə edilir. Bakıda, eləcə də ayrı-ayrı bölgələrdə müasir tələblərə cavab verən istirahət mərkəzlərinin, otellərin inşası, yol-nəqliyyat infrastrukturunun yaradılması da prosesə müsbət təsir edir. Ölkəmizin coğrafi mövqeyi, iqlim şəraiti, flora və faunasının zənginliyi, mədəni-tarixi irsi də turizmin inkişafında mühüm rol oynayır. Lakin bütün bunların fonunda problemlərin olması da danılmaz həqiqətdir. Ölkəmizə gələn əcnəbiləri narazı salan məqamlar da kifayət qədərdir. Azərbaycan Otellər və Restoranlar Assosiasiyasının idarə heyətinin sədri Samir Dübəndi bu xüsusda bildirir: "Turistlərin əsas şikayətləri restoranlarda qiymətlərin yüksəkliyi, yerli və əcnəbi vətəndaşlar üçün fərqli, yəni ikili menyudan istifadə olunması ilə əlaqədardır. Restoranlarda əcnəbilər üçün fərqli qiymətlərin olması restoran biznesinin konseptinə yaddır. Amma onu vurğulayım ki, bizdə otellərin qiyməti normaldır. Lakin ölkəmizdə turizmin bahalı olduğunu deyə bilərik. Buna görə də kütləvi turizmə nail ola bilmirik. Turistlərin qarşılaşdığı digər problemlərdən biri də otellərin ulduz təsnifatı ilə bağlıdır. Əcnəbi turistlər ölkəmizə gəlməzdən öncə internet üzərindən otellər haqda məlumatları araşdırırlar. Təəssüf ki, bu saytlarda bizim yerli otellərin ulduz dərəcəsi çox zaman düzgün göstərilmir. Biz assosiasiya olaraq, mütəmadi qaydada bu aqreqatorlara baxırıq və bir çox otelin ulduz dərəcəsinin düzgün qeyd olunmadığını görürük. İstehlakçının aldadılması isə düzgün deyil. Çünki otellər yalnız özlərini deyil, həmçinin ölkəmizi təmsil edirlər".

Bu problemin qarşısını almaq üçün nə edilməli olduğu ilə bağlı ekspert bildirir: "Bəzi ölkələrdə bu kimi problemlərin dövlət səviyyəsində aradan qaldırılması üçün müəyyən addımlar atılıb. Məsələn, belə ölkələrdə dövlət tərəfindən həmin aqreqatorlara müraciət edilir, xahiş və tələblə bildirilir ki, bizim ərazimizdən qəbul etdiyiniz otellərin ulduz dərəcələrini göstərmək üçün dövlət şəhadətnamələrini tələb edin. Belə olan halda otel eyni zamanda ulduzunu,



qiymətlərini, hava limanından nə qədər uzaqda yerləşdiyini, otaqlardakı şəraitini və dövlət şəhadətnamələrini göstərməli olacaq. Əcnəbi turistlərin aldadılmaması üçün biz də bu təcrübədən istifadə etməliyik. Bəzən binanın üzərində təsnifatına görə saxta ulduz qoyulur. Hətta elə otellərimiz var ki, ulduz dərəcəsinə görə təsnif olunmayıb. Son nəticədə bu, istehlakçının aldadılmasıdır. Ulduzların təsnifatı ilə bağlı Azərbaycandakı vəziyyətdən danışdıqda onu qeyd etməliyəm ki, hazırda bu iş dayandırılıb. Bizdə olan məlumata görə, 2020-ci ildən sonra otellərin təsnifat sisteminə qoşulmasına start veriləcək".

Ekspert tur agentlərinin də üzərinə böyük iş düşdüyünü vurğulayır:"Adını "tour agency" qoyan şirkətlər bəzi hallarda yalnız tur biletlərinin satışı ilə məşğul olur, hansısa turizm məhsulu ortaya çıxarmaq iqtidarında deyillər. Qonaq cəlb etmək bilavasitə otelin işi deyil. Tur agentliklər, tur operatorlar bu işlə məşğul olmalıdır. Onlar bu işi qismən görürlər". Hesab olunur ki, qeyd edilən bu problemlərin mümkün qədər tez həlli turizmin inkişafına, onun ölkə iqtisadiyyatında rolunun artmasına mühüm töhfələr verməkiqtidarındadır.

***Tahir TAĞIYEV***

# Banklar istehlak kreditləri kampaniyasını genişləndirir, maliyyə-pul sistemi üçün yeni təhlükə dalğası...

## *Ruslan Atakişiyev: "İstehlak kreditlərini əhalinin vaxtında qaytarması amili olduğu halda, biznes kreditlərində bu olmur"*

**Bu gün bankların təklif etdiyi kreditlərin təxminən yarısı istehlak kreditləridir. 13,8 milyard manat kredit portfelində hər yüz manat kreditin əlli manatı istehlakçı üçün verilir. İstehsal üçün verilən kreditlərin həcmi ümumi kredit portfelinin cəmi 9 faizini təşkil edir.**

Açıqlanan statistik rəqəmlərə əsasən, 2019-cu ilin 9 ayı ərzində 3,1 milyard manat istehlak bazarına, 3,9 milyard manat isə biznesə kredit verilib.

Bunlar göstərir ki, banklarda istehlak kreditləşməsi davam edir. Real sektora yönəldilən kreditlərin həcmi isə yenə də aşağı olaraq qalır. Baxmayaraq ki, ölkə başçısı dəfələrlə öz çıxışında bankların real sektora kredit ayırmasının vacibliyi haqqında fikir bildirib.

Sonuncu dəfə Prezident İlham Əliyev oktyabrın 15-də keçirdiyi iqtisadi müşavirədə də bankların real sektora kredit ayırmasının əhəmiyyəti haqqında çıxış etmişdi: "Azərbaycanın bank sektoru iqtisadiyyatın real sektorunun artımına o qədər də kömək göstərmir və son illər yenə də istehlak kreditlərinin məbləği artır. Mən əvvəlki illərdə bunu demişəm ki, bizim portfelimizdə istehlak kreditləri üstünlük təşkil edir və bank sektorunun böhranının səbəblərindən biri də məhz o idi. İndi də mənə məlumat verilir ki, yenə də bu meyllər artır, iqtisadiyyatın real sektoruna yox, yenə də istehlaka, yeni istehlak mallarının alınmasına kreditlər verilir. Əgər bu davam edərsə, yenə də bir neçə ildən sonra xoşagəlməz problemlərlə üzləşə bilərik".

Statistik rəqəmlər də kredit sektoruna ayrılan məbləğin heç də ürəkaçan olmadığını bir daha göstərir. Bankların real sektora deyil, istehlak sahəsinə hələ də meyl etməsi bank sektorunu risqlə üz-üzə qoyur.

Prezidentin banklarin real sektora kredit ayırması ilə bağlı çağırışından sonra hər kəs gözləyirdi ki, banklar istehlak kreditlərinə az maraq göstərəcək. Bu sahədə qeydə alınan vəziyyət real sektorun xeyrinə dəyişəcək. Ancaq müşahidələr bunun əksini göstərir. Son zamanlar kommersiya banklarının reklam çarxlarında istehlak kreditləri ilə bağlı güzəştli kampaniyalar etdiyinin şahidi oluruq.

Bir sıra banklar nəinki istehlak kreditlərini azaldıb, əksinə, yeni-yeni kampaniyalarla bu sahədə aktivliyi artırıblar. Bu banklar arasında "Unibank"ın, "Bank of Baku"nun, "Beynəlxalq Bank"ın adlarını çəkmək olar.

"Unibank"ın sonuncu kredit kampaniyası Dövlət Bayrağı gününə təsadüf edib. Belə ki, noyabrın 6-dan 8-dək banka müraciət edən hər kəsə 20 min manata qədər faizsiz və kommersiyasız kreditin veriləcəyi "Unibank"ın reklamlarında əksini tapıb. "Bank of Baku" müəllimlər üçün, "Beynəlxalq Bank" isə Konstitusiya Günü ilə əlaqədar olaraq noyabrın 15-dək elan etdiyi kampaniya çərçivəsində müştərilərə 20 min manatadək nağd kredit təklif etdiyini qeyd edir. Eyni zamanda, onu da bildirək ki, adları çəkilən bankların hər birinin kredit kartları ilə bağlı reklamlarına istər TV, istərsə də sosial şəbəkələrdə, onlayn mediada rast gəlmək olar.

İqtisadçı-ekspert Ruslan Atakişiyev bildirdi ki, son dövrlər dövlət tərəfindən həyata keçirilən tədbirlərin bir hissəsi ona yönəlib ki, banklar daha çox özəl sektor, real sektorla işləsinlər: "Yeni banklar sahibkarlara vəsait versinlər, daha çox qeyri-neft sektoruna investisiya yatırsınlar. Son dövrlər faizlərin aşağı salınması ilə bağlı da banklara təsir göstərilir. Banklar sahibkarlıq subyektlərinə müəyyən qədər vəsait versələr də, daha çox yüksək faizlə kredit verməkdə maraqlıdırlar. Bunun üçün ən yaxşı bazar sırf istehlak kreditləridir".

Onun sözlərinə görə, son dövrlər istehlak kreditlərinin həcmi ümumi iqtisadiyyata qoyulan kreditlərin həcmi içərisində 40 faizi ötmək üzrədir: "Kənd təsərrüfatına, sənayeyə qoyulan kreditlər müvafiq olaraq 3-5 faiz və 12 faiz arasında dəyişir. Bu da onu göstərir ki, bankların sahibkarlıq subyektlərinə marağı azdır. Banklar daha çox vəsait əldə etmək üçün istehlak kreditləşməsinə yönəlirlər. Burada, ilk növbədə, maliyyə mənbələrinə çıxışı asanlaşdırmaq lazımdır. Bunun üçün də maliyyə alətlərinin sayı çoxalmalıdır. Maliyyə alətlərinin, maliyyə mənbələrinin sayı nə qədər çox olsa, banklar rəqabətin təsiri ilə faizləri aşağı salacaq və real sektorla işləyəcəklər".




*"Son dövrlər dövlət tərəfindən həyata keçirilən tədbirlərin bir hissəsi ona yönəlib ki, banklar daha çox real sektorla işləsinlər"*

Həmsöhbətimiz onu da vurğuladı ki, istehlak kreditlərini əhalinin vaxtında qaytarması amili olduğu halda, biznes kreditlərində bu olmur. Çünki biznes kreditləri daha çox şirkətlərə, sahibkarlara verilir. Şirkətlərdən də pulu geri almaq çox vaxt problemlər yaşadır: "Bundan başqa, hazırda sahibkarların bizneslərini genişləndirmək üçün bir o qədər də imkanı yoxdur. Banklar da kapitalını biznesə yatırmaq istəmir. Çünki biznesin uğursuz olma ehtimalı gözlənir. Bu baxımdan istehlak kreditlərinin risqi çox azdır. Eyni zamanda, istehlak kreditlərinin faizi biznes kreditlərinin faizi ilə nisbətdə daha çoxdur. İstehlak kreditlərinə tətbiq edilən faiz nisbətini biznes kreditlərinə tətbiq etsək, səmərəsiz nəticə verə bilər.

Digər tərəfdən, biznes kreditləri daha çox maliyyə tələb edir. Biznes kreditləri üçün minimal kredit 10000, 100000, hətta milyonlarla vəsaitə qədər ola bilər. Bankın da əlində bu qədər maliyyə olmaya bilər. İstehlak kreditlərində isə minimal kredit bir neçə mindən bir neçə on min təşkil edə bilər. Buna görə də banklar istehlak kreditləri verməkdə daha maraqlıdır".

**Günel CƏLİLOVA**

**100-dən çox yaşı olan Azərbaycan ədliyyəsi uzun və şərəfli yol keçib. Dövlətçiliyin əsas sütunlarından biri olan ədliyyə sistemində milli kadrların yetişdirilməsi məsələsi də həmişə diqqət mərkəzində olub. Ölkəmizin ədliyyə sistemindən danışmağımız təsadüfi deyil, çünki noyabrın 22-də ədliyyə işçilərinin peşə bayramıdır.**

# Goranboy Qeydiyyat Şöbəsinin rəisi ədliyyə işçilərinin peşə bayramı təəssüratlarından danışdı...

***Tuqay Sərdarlı:** "Azərbaycan ədliyyə orqanları nöqsansız və problemsiz fəaliyyət göstərirlər"*



*"Goranboy Rayon Qeydiyyat Şöbəsinin rəhbəri kimi məqsədim vətəndaşlara peşəkar səviyyədə, yüksək keyfiyyətli, faydalı xidmət göstərməkdir"*

Qeyd edək ki, müstəqil Azərbaycan dövlətinin Ədliyyə Nazirliyi ilk dəfə 1918-ci ilin may ayının 28-də - Azərbaycan Xalq Cümhuriyyətinin elan edildiyi gün yaradılıb, təcrübəli dövlət xadimi Xəlil bəy Xasməmmədov ilk ədliyyə naziri təyin olunub. Həmin ilin noyabr ayının 22-də nazirliyin əsasnaməsi təsdiq edilərək, onun funksiya və səlahiyyətləri müəyyənləşdirilib. Ədliyyə Nazirliyinin dövlətin yaradıldığı gün təsis edilməsi milli dövlət quruculuğunda ədliyyə sisteminə xüsusi əhəmiyyət verilməsinə dəlalət edir.

Özünü Azərbaycan Xalq Cümhuriyyətinin varisi elan edən müstəqil Azərbaycan Respublikasında ədliyyə işçilərinin peşə bayramı da noyabrın 22-də qeyd edilir.

Respublikamızın hər rayonunda, şəhərində ədliyyə orqanları mövcuddur, müxtəlif istiqamətləri əhatə edən bu qurumun əməkdaşları ictimaiyyətə, vətəndaşlara xidmət göstərirlər. Sözsüz ki, Azərbaycanın bölgələrində ədalətin bərqərar olmasında əvəzsiz rolu olan ədliyyə qurumlarına vətəndaşlar tez-tez müraciət edirlər.

Azərbaycan ədliyyəsinin 101 illiyi münasibətilə Goranboy Rayon Qeydiyyat Şöbəsinin rəisi Tuqay Cavanşir oğlu Sərdarlı ilə əlaqə saxlayıb onunla ədliyyə sahəsindəki uğur və nailiyyətlər haqqında danışdıq.

T.Sərdarlı 2008-ci ildən indiyə qədər Goranboy Rayon Qeydiyyat Şöbəsinin rəisi vəzifəsində çalışır. Əvvəllər hüquq-mühafizə orqanlarında müxtəlif vəzifələrdə işləyən T.Sərdarlı 11 ildir rayon üzrə bu sahəyə rəhbərlik edir. "Bu günə kimi də bu sahədə işləyirəm və fəaliyyətimdə heç bir problemlə üzləşməmişəm. Ədliyyə Nazirliyi respublika üzrə ideal fəaliyyət göstərən nazirlikdir. Həm də bu sahədə çox geniş və sürətli inkişaf mövcuddur. Bu sahədə müasir informasiya texnologiyalarından geniş istifadə olunur. Ona görə də təsadüfi deyil ki, bu sahədə daha çox iş görmək, vətəndaşlara xidmət göstərmək mümkündür. Respublika Prezidentinin bu sahə üzrə çox mühüm sərəncamları, fərmanları, qərarları olub. Bu sənədlərin də imzalanması, icra edilməsi ədliyyə sahəsinin inkişafına səbəb olub. Goranboy Rayon Qeydiyyat Şöbəsinin rəhbəri kimi məqsədim vətəndaşlara peşəkar səviyyədə, yüksək keyfiyyətli, faydalı xidmət göstərməkdir. 22 noyabrın Azərbaycanda ədliyyə işçilərinin peşə bayramı kimi qeyd edilməsi ulu öndərin bu sahəyə verdiyi ən böyük, qiymətli töhfələrdən biridir. Hər il davamlı olaraq, respublikamızın hər yerində olduğu kimi, Goranboy rayonunda da ədliyyə işçilərinin peşə bayramı çox yüksək səviyyədə, təntənə ilə qeyd edilir. Rayon rəhbərliyi bayramımız münasibətilə rayonun ədliyyə işçilərini təbrik edir, bu sahədə əldə etdiyimiz uğurlar müxtəlif mükafatlar, fəxri fərmanlarla qiymətləndirilir".

T.Sərdarlı qeyd etdi ki, Azərbaycanda ədliyyə orqanlarının yaradılmasının böyük tarixi var və onun yaradılması tarixi Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması ilə üst-üstə düşür. "Cümhuriyyət qurulduqda AXC hökumətinin əldə etdiyi uğurlardan biri məhz Azərbaycanın ilk Ədliyyə Nazirliyinin yaradılması olub. Ondan sonrakı dövrdə, yəni respublikamızın Sovetlər Birliyinin tərkibində olduğu illərdə Azərbaycanda Ədliyyə Nazirliyi o qədər də mütəşəkkil orqan kimi mövcud olmayıb. Ulu öndər hakimiyyətə gəldikdən sonra ayrıca Ədliyyə Nazirliyinin yaradılması haqqında qərar qəbul edilib və nazirlik yaradılıb. Bu sahənin inkişafına ulu öndər çox böyük töhfələr verib. Bir məsələni də deyim ki, ulu öndərin ədliyyə sahəsinə ən böyük töhfələrindən biri bilavasitə milli kadrlardan istifadə edərək yeni Azərbaycan ədliyyəsini yaratması olub. Bu orqana Azərbaycanda tanınan, böyük nüfuza malik olan, yüksək peşəkarlıq qabiliyyətinə, biliyinə, təcrübəsinə malik olan hüquqşünas kadrlar cəlb olunub. Nəticə etibarilə də deyərdim ki, Azərbaycanda bu sahəyə Avropada, dünya səviyyəsində mövcud olan innovasiyalar tətbiq edilməklə, Azərbaycan ədliyyəsi inkişaf etməyə başlayıb. Məsələn, Azərbaycanda məhkəmə-hüquq sistemi xeyli təkmilləşdirilib. Bura çoxpilləli məhkəmə sistemi yaradılması, Penitensiar Xidmətin yaradılması və onun inkişafı, cəzaçəkmə müəssisələrində texniki, eləcə də digər şəraitlərin bir neçə dəfə yaxşılaşdırılması, dünya standartlarına gətirilib çıxarılması, müasir Azərbaycan ədliyyəsində informasiya texnologiyalarından səmərəli istifadə edilməsi və s. daxildir. Ulu öndərdən sonra da Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən imzalanmış müvafiq sərəncamlar, verilmiş qərarlar əsasında bu günə kimi ədliyyə orqanları mütəşəkkil olaraq inkişaf etdirilir. Mən bunu fəxrlə deyirəm, təsadüfi deyil ki, Azərbaycan ədliyyə orqanları nöqsansız və problemsiz fəaliyyət göstərirlər".

Azərbaycan və dünya üçün tamam yeni olan "ASAN xidmət" sahəsində ədliyyə orqanlarının da xüsusi xidmətinin olduğunu deyən T.Sərdarlının sözlərinə görə, Prezidentin təşəbbüsü ilə yaradılan "ASAN xidmət" bir Azərbaycan brendi kimi nailiyyətlər əldə edib. "ASAN xidmət" mərkəzlərinin iş fəaliyyətinə vətəndaşlıq vəziyyəti aktlarının qeydiyyatı ilə bağlı bütün əməliyyatların icrası daxil edilib. "Vətəndaşların "ASAN xidmət"ə müraciəti əsasında qeydiyyat şöbəsinin səlahiyyətində olan bütün işlər həll edilir. Deyərdim ki, bu özü ədliyyə sahəsində ən böyük yenilikdir. Deyə bilərəm ki, heç Avropanın özündə vətəndaşlar üçün belə bir yenilik, belə bir şərait yaradılmayıb. Ədliyyə sahəsində də cənab Prezidentin təşəbbüsü ilə təsis edilən "ASAN xidmət" Azərbaycan brendi tətbiq olunur. Onu da qeyd edim ki, dövlət rəhbərliyi tərəfindən bu sahədə imzalanan sərəncamlar, fərmanlar, verilən qərarlar şəxsən ədliyyə naziri cənab Fikrət Məmmədov tərəfindən çox böyük uğurla icra edilir, həyata keçirilir. Məhz onun ideal fəaliyyəti nəticəsində mövcud olan inkişafa, fərqli fəaliyyətə, müsbət nəticələr əldə edilməsinə nail olmaq mümkün olub. Eyni zamanda, qeyd etməliyəm ki, Qeydiyyat və Notariat Baş İdarəsinin rəhbərliyi də gündəlik qarşıda duran vəzifələr müvəffəqiyyətlə həyata keçirilir, rəhbər dövlət orqanlarının sərəncam və göstərişləri yerinə yetirilir. Biz də, o cümlədən, aldığımız əmr və göstərişləri vaxtında icra etməyə çalışırıq" - deyə T.Sərdarlı qeyd etdi.

***İradə SARIYEVA***

# Rusiyada internetdən yeni istifadə qaydaları ətrafında qızğın müzakirələr Azərbaycana da adladı...

**İnternet resurslarından sərbəst istifadə üçün mövcud olan şərait bir sıra hallarda sui-istifadə meyllərinin artmasına, feyk profillərin yaradılmasına, bəzi saxtakar əməllərin həyata keçirilməsinə imkan verir. Müasir dünyada internet şəbəkəsində mövcud olan problemlər öz kəskinliyi ilə daha çox insanlara, istifadəçilərə zərər vurur.**



## Azər Həsrət: "Azərbaycanda bunun mexanizmi mövcuddur, sadəcə, onu internetə, sosial mediaya da tətbiq etmək lazımdır"

Bu gün internetdən istifadə etməklə saysız neqativ əməlin həyata keçirilməsinin şahidi oluruq. Feyk profillərin, feyk elektron poçtlarının, eləcə də digər analoji vasitələrin insanlara, istifadəçilərə vurduğu zərəri heç cür ödəmək olmur. Hazırda bütün dünya ölkələrində internetdəki saxta təzahürlərə, profillərə, istifadəçilərə qarşı ciddi mübarizə aparılsa da, bu heç bir nəticə vermir. Müxtəlif dövlətlər internetdən sui-istifadənin qarşısının alınması üçün ayrı-ayrı metodlar, mexanizmlər təklif edirlər. Bəziləri isə artıq bu mexanizmləri işlək vəziyyətə gətirirlər.

Belə bir addım Rusiya tərəfindən atılmaqdadır. Rusiyada belə bir qanun layihəsi hazırlanır ki, internetdə sosial şəbəkələrdən, elektron poçtlardan qeydiyyatdan keçmək istəyən şəxslər mütləq bu prosesi şəxsiyyət vəsiqəsinin, pasportunun seriya nömrəsini qeyd etməklə həyata keçirməlidirlər. Yəni istənilən internet resursuna giriş şəxsiyyət vəsiqəsi və pasportla olmalıdır. Ekspertlər qeyd edirlər ki, bu mexanizmin işləkliyinin təmin edilməsi bu sahədə təhlükəsizliyin təmin edilməsi üçün əhəmiyyətlidir. Onlar hesab edirlər ki, bu texnologiyanın Azərbaycanda da tətbiq edilməsi mümkünsüz deyil, sadəcə, bunu işləyib hazırlamaq lazımdır. Bu mexanizm bir sıra xarici saytlarda tətbiq edilir.

Tanınmış media eksperti Azər Həsrət "Bakı-Xəbər"ə bildirdi ki, bunun üçün Azərbaycanda tam olaraq şərait var və sadəcə, bu texnologiyanın sosial mediaya, internetə tətbiq edilməsi lazımdır.

İnternet resurslarında şəxsiyyət vəsiqəsi və şəxsiyyəti təsdiq edən digər sənədlə qeydiyyatdan keçmək ideyasının ABŞ ictimaiyyətinə məxsus olduğunu deyən A.Həsrət bildirdi ki, təxminən 10 il əvvəl ABŞ-da bu təşəbbüsü irəli sürənlər internet təhlükəsizliyinə nail olmaq istəyiblər, lakin hələ də bu ölkədə sözügedən prosedur həyata keçirilməyib. "İnternetdən qeydiyyatdan keçmək üçün bu prosesi şəxsiyyət vəsiqəsinin, pasportun kodu ilə reallaşdırmağın təhlükəsizlik baxımından böyük əhəmiyyəti olardı. Bilirsiniz ki, bu gün sosial şəbəkələrdə, eləcə də digər internet resurslarında saxta adlar altında fəaliyyət göstərənlərin sayı kütləvidir. Onlar saxta adlar altında qanunsuz işlərlə məşğul olurlar. Bunun qarşısının alınması üçün vətəndaşların şəxsiyyət vəsiqəsi ilə qeydiyyatdan keçməsi çox vacibdir. Rusiya da özünü qorumaq üçün bu cür addımlar atmalıdır. Azərbaycana gəlincə, ölkəmiz də saxta profillərdən, saxta hesablardan çox ciddi əziyyət çəkir. Görürsünüz ki, söyüş "ÇT"ləri, trol ordusu, qruplaşmalar internetdən sui-istifadə edərək qanunsuz çağırışlar, əməllər sərgiləyirlər. Ona görə Azərbaycanda da internet istifadəçilərinin bu resurslardan şəxsiyyət vəsiqəsi ilə qeydiyyatdan keçməsi işin xeyrinə olardı. Azərbaycanda bunun üçün şərait var. Bu mexanizmin ölkəmizdə işləkliyinin təmin olunmasına ciddi ehtiyac yaranıb. İstifadəçilərin internet resurslarından şəxsiyyət vəsiqəsi ilə qeydiyyatdan keçirilməsi texnologiyası reallaşdırmaq tam mümkündür. Burada çətin heç nə yoxdur. Azərbaycanda elektron hökumət quruculuğu gedir və internet üzərindən bütün xidmətlərin həyata keçirilməsi mümkündür. Biz internet üzərindən bütün xidmətləri şəxsiyyət vəsiqəsi ilə alırıq. Yəni Azərbaycanda bunun mexanizmi mövcuddur, sadəcə, onu internetə, sosial mediaya da tətbiq etmək lazımdır".

*"İnternetdən qeydiyyatdan keçmək üçün bu prosesi şəxsiyyət vəsiqəsinin, pasportun kodu ilə reallaşdırmağın təhlükəsizlik baxımından böyük əhəmiyyəti olardı"*

A.Həsrət hesab edir ki, bununla da Azərbaycanda internet sahəsində mövcud olan neqativlər aradan qaldırılar, həm də feyk profillər, saxta hesablar sıradan çıxar. Onun sözlərinə görə, internetdən şəxsiyyət vəsiqəsi ilə qeydiyyatdan keçən vətəndaş özünü qanun qarşısında cavabdeh sayacaq və heç bir neqativ əmələ yol verməyəcək.

***İradə SARIYEVA***

# Coratda qaz sayğaclarının dəyişdirilməsi əhaliyə yeni problem gətirib

**Azərbaycanda Vətəndaş Cəmiyyətinin İnkişafına Yardım Assosiasiyasının (AVCİYA) Seçki Qərargahının rəhbəri Məhərrəm Zülfüqarlı "Bakı-Xəbər"ə etdiyi şikayətində bildirdi ki, yaşadığı Corat qəsəbəsində və Sumqayıt şəhərinin bəzi yerlərində qaz sayğaclarının dəyişdirilməsi müəyyən problemlərə səbəb olub.**



## Məhərrəm Zülfüqarlı: "Yeni sayğacları quraşdırıb insanları taleyin ümidinə buraxıblar"

Onun sözlərinə görə, nədənsə, kommunal xidmətlərlə bağlı problemlər seçki ərəfəsində qabardılır: "Seçkilərlə məşğul olan birbaşa ekspert kimi dəfələrlə bunu müşahidə etmişəm. Kimin borcu varsa, düşürlər onun üstünə. Sanki əhalini bilərəkdən narazı salmaq istəyirlər. Çox təəssüflər olsun ki, belə bir proses builki bələdiyyə seçkiləri ərəfəsində də müşahidə edilir. Məsələn, bir həftə əvvəl Sumqayıtda insanların normal işləyən sayğaclarını onlara xəbərdarlıq etmədən götürüblər. Yerinə təzə smart sayğaclar quraşdırıblar. Bu da əhalinin böyük narazılığına səbəb olub. Narazılığın yaranmasının səbəbləri var. Birincisi, sözügedən sayğacların idarə edilməsini insanlar bilmirlər. Mənzil sahiblərini dəvət edirlər ki, gəlin kart alın, sayğaca tanıdın və sonra pul yükləyin. Sumqayıt sakinləri gedib həmin kartları alıb, ancaq ona pul yükləmək problemdir. Qışın günündə abonentlər əllərində yeni smartkart ola-ola qazdan istifadə edə bilmirlər. Hesab edirəm ki, bunda kiminsə marağı var. Yəni üçüncü qüvvənin bunda marağı var. Ola bilsin ki, həmin sayğacları gətirməklə külli miqdarda pul qazanırlar. Bu minvalla seçki ərəfəsində əhalini hakimiyyətdən narazı salmaq istəyirlər. Ona görə də bununla ciddi məşğul olmaq lazımdır".

M. Zülfüqarlı onu da qeyd etdi ki, bir abonent olaraq şəxsən özü də bu problemlə üzləşib: "Corat qəsəbəsində yaşayıram. Bilavasitə bu problemlə üzləşdiyimə görə qəzetinizə müraciət etmək qərarına gəldim. Problem ondadır ki, indiyə qədər qazı sayğaca yükləyə bilməmişəm. Əvvəlki sayğacda mənim 40 manatlıq pul vəsaitim var ki, onu da ödəmək imkanı yoxdur. Çünki problem ondadır ki, qaz sayğaclarını dəyişənlər şənbə və bazar günləri işləmirlər. Vətəndaşların çoxu, o cümlədən, mən özüm 5 günlük iş müddətində idarəyə müraciət edə bilmirəm. Çünki insanlar işi yarımçıq qoyub bununla bağlı müraciət edə bilmirlər. Getsələr, o zaman işi yarımçıq qoymalıdırlar. Bu da mümkün deyil. Şəxsən mən özüm işlərimi yarımçıq qoyub bununla məşğul olmağa vaxt tapa bilmirəm. Şənbə və bazar belə bir imkan olsa da, həmin günlər sayğacları quraşdıran qurum işləmir. Yeni sayğacları quraşdırıb insanları taleyin ümidinə buraxıblar. Hava da soyuduğu üçün evi qızdıra bilmirik. Olmazdı ki, qaz sayğacları yay fəslində dəyişdirilsin? Hansı ki, bunun üçün ən münasib vaxt yay fəslidir. Həmin vaxt qazdan az istifadə edildiyi üçün sayğacların dəyişdirilməsi daha münasibdir. Ancaq buna qışda başlayıb əhalini narazı salırlar. Hansı ki, dekabrın 23-də ölkədə bələdiyyə seçkiləri keçiriləcək".

*"Sanki kimlərsə seçki ərəfəsində əhalini bilərəkdən narazı salmaq istəyir"*

**Yaranmış problemlə əlaqədar bir neçə dəfə "Azəriqaz" İstehsalat Birliyi ilə əlaqə saxlasaq da, buna aydınlıq gətirən olmadı.**

***Vidadi ORDAHALLI***

# Sığorta şirkətlərinin yeni problemi - "rentakar" maşınları niyə sığorta olunmur...

**Dünyanın əksər ölkələrində olduğu kimi, Azərbaycanda da avtomobil kirayəsi biznesi geniş yayılıb. Bu da təbiidir. Çünki xeyli sayda ölkə vətəndaşı, eləcə də xarici turistlər müxtəlif şəhər və rayonlarımıza, hətta ucqar kəndlərə rahat səfər etmək, ürəyi istəyən kimi gəzmək üçün kirayəyə avtomobil götürür. Yəni bu xidmətə tələbat var və getdikcə artır.**




## *Xəyal Məmmədxanlı: "Maşın icarəyə verən şirkətlər xüsusi risq qrupuna aid edildiyi üçün, sığorta portfeli olduqca zərərlidir"*

Bakıda avtomobil icarəsi xidmətləri son illər inkişaf etməyə başlayıb. Bu biznes sahəsində əvvəlki illərlə müqayisədə canlanma müşahidə olunur. Əksər vaxt şirkətlər ekonom-klass və premium paketlər təklif edirlər. Onların xidmətlərindən isə həm yerli əhali, həm də turistlər istifadə edirlər.

Odur ki, ölkədə avtomobil kirayəsi şirkətlərinin də sayı artmaqdadır. Şirkətlərin müştəri sarıdan bir problemi olmasa da, maşınların sığortalanmasında vəziyyət heç də yaxşı deyil. Sahibkarlar bir çox hallarda avtomobilləri sığorta etdirə bilmədiklərini və bu işdə çətinlik çəkdiklərini bildirirlər.

Nəzərə almaq lazımdır ki, xoşagəlməz halların qaçılmazlığı sığortanın vacibliyini hər zaman ön plana çəkir. Məsələnin həlli isə həm sığorta şirkətləri, həm də sahibkarların razılaşmasından asılıdır.

Maşın icarəsi ilə məşğul olan menecer Təbriz İlyasov bildirdi ki, onlar icarə avtomobilləri sığorta etdirməkdə çətinlik çəkirlər: "Bir çox halda olur ki, sığorta menecerləri yaxınlaşıb şərtlərini deyirlər, biz razılaşırıq, bizi ofislərə dəvət edirlər. Biz o ofislərə gedib hazır sənədlərə imza çəkmək üzrə olarkən artıq onların rəhbərliyindən xəbər gəlir ki, bu, xüsusi risqli qrupa aiddir. Maraqlıdır, taksilərlə bağlı bu kimi problem yaşanmır. Avtomobillərin sığortalanmaması müştəriləri də narahat edir. Onlar əsasən də bahalı maşını götürməkdə çətinlik çəkdiklərini deyirlər.

*"...bizim sahibkarlar həmin qiymətə avtomobillərinin birillik sığortasını tələb edirlər, təbii ki, bu mümkün olan bir şey deyil"*

Müştərilər deyirlər ki, onlar bahalı maşın icarəyə götürmək istəyirlər, lakin sığortası olmadığını görəndə imtina edirlər".

Sığorta eksperti Xəyal Məmmədxanlının sözlərinə görə, maşın icarəyə verən şirkətlər xüsusi risq qrupuna aid edildiyi üçün, sığorta portfeli olduqca zərərlidir.

**Ona görə də sığorta şirkətləri bir çox hallarda bu risqləri sığortalamaqdan imtina edirlər: "Amma bizim sahibkarlar həmin qiymətə avtomobillərinin birillik sığortasını tələb edirlər. Təbii ki, bu mümkün olan bir şey deyil. Çünki risq fiziki şəxslərə məxsus avtomobillərdən dəfələrlə artıqdır. Təbii ki, risq nə qədər artıqdırsa, sığorta haqqı da bir o qədər artıq olmalıdır"**

*Günel CƏLİLOVA*

# Azərbaycanda yerli geyimlər istehsalı sürətlə tənəzzülə gedir...

**Ölkədə illərdir kiçik sexlərdə, moda evlərində, eləcə də fabriklərdə geyim istehsal edilir. Lakin hələ də öz brendimizi yarada bilməmişik. Düzdür, bəzi moda evləri məhsullarını brendləşdirməyi müəyyən qədər bacarıb. Ancaq bu geyimlər də böyük kütləyə deyil, dar çərçivəyə hesablandığından, bazarda çox deyil.**



## *Vüqar Bayramov: "Köhnə emal müəssisələrinin yenidən qurulması ilə yanaşı, sahibkarları stimullaşdırıb, yeni zavod-fabriklərin də açılmasına şərait yaratmaq olar"*

Onu da qeyd edək ki, yerli sexlərdə, fabriklərdə tikilən geyimlər bazara "Made in Azerbaijan" etiketi ilə deyil, başqa ölkələrin istehsalı kimi çıxarılır. Səbəb kimi də Azərbaycan istehlakçısının məhsul seçimində brend amilinə daha çox önəm verməsi, bir zamanlar ölkədə fəaliyyət göstərən fabriklərin keyfiyyətsiz məhsullarının psixoloji təsirindən çıxmaması göstərilir. Qısası, vətəndaşımızın yerli malın keyfiyyətinə etibarı yoxdur. Ona görə də sahibkar tərəfindən aldadılır. Bazarın vəziyyətini daha yaxından araşdırmağa çalışdıq.

İlk əvvəl nəzərə çatdıraq ki, geyim istehsalının aid olduğu yüngül sənaye sektoru bir çox ölkənin büdcələrinin əsas gəlir mənbəyidir. Qlobal tekstil və geyim sənayesinin dövriyyəsi 3 trilyon dollar təşkil edir. Geyim sənayesi əsasən Asiya və digər üçüncü dünya ölkələrinin əlində cəmləşir. Geyim ixracı isə 10 ölkənin - Çin, Avropa İttifaqı, Hindistan, Türkiyə, Banqladeş, Vyetnam, ABŞ, Koreya, Pakistan, İndoneziyanın payına düşür. Onların ixracdan əldə etdiyi gəlirlər ildənilə artır.

Azərbaycanda isə bu sahədə vəziyyət fərqlidir. Belə ki, yerli istehsal olan geyimlər azalır, xaricdən idxal isə artır.

Yerli istehsal olan geyimlərə nə səbəbdən az maraq göstərildiyini, istehlakçıların xarici ölkə istehsalı olan libaslara nə üçün üstünlük verdiyini öyrənmək məqsədilə mütəxəssislərə müraciət etdik.

İqtisadçı Vüqar Bayramov bildirdi ki, Azərbaycanda yüngül sənaye məhsullarına tələbat kifayət qədər yüksəkdir. Biz xaricdən xüsusilə geyim və yüngül sənaye məhsullarını idxal edirik: "Pambıqçılığın həm də emaledici istiqamətdə formalaşması idxalın azalmasına gətirib çıxaracaq. Bunun üçün yeni istehsal sahələrinin yaradılmasına ehtiyac var. Xüsusilə geyim məhsulları hazırlayan istehsal sahələrinin və fabriklərin formalaşması lazımdır".

Həmsöhbətimizin sözlərinə görə, Azərbaycan vətəndaşları böyük məbləğdə vəsaitləri geyimləri üçün sərf edirlər. Nəticədə valyuta ölkədən xaricə gedir. Amma pambıqçılıqla bağlı emaledici sektorun inkişaf etdirilməsi həm idxaldan asılılığın aradan qaldırılmasına, həm yeni iş yerləri açılmasına, həm də valyutanın ölkə daxilində qalmasına şərait yaradacaq: "Bu baxımdan, daha məqsədəuyğundur ki, pambıq yalnız xammal formasında deyil, eyni zamanda, daxildə yeni istehsal sektorlarını inkişaf etdirməklə, həm də emal edilib məhsul formasında istifadə edilsin. Emal prosesinin bərpa olunması həm pambıqçılığın inkişaf etdirilməsinə, həm də yerli istehsalın artırılması hesabına idxaldan asılılığın minimumlaşdırılmasına səbəb olacaq".

*"Azərbaycan vətəndaşları böyük məbləğdə vəsaitləri geyimləri üçün sərf edirlər, nəticədə valyuta ölkədən xaricə gedir"*

İqtisadçının sözlərinə görə, köhnə emal müəssisələrinin yenidən qurulması ilə yanaşı, sahibkarları stimullaşdırıb, yeni zavod-fabriklərin də açılmasına şərait yaratmaq olar: "Bu gün geyim məhsullarının istehsalı ilə məşğul olmaq istəyən kifayət qədər sahibkar var. Dövlət o sahibkarları stimullaşdırmalı, güzəştli kreditlər almalarına şərait yaratmalıdır".

*Günel CƏLİLOVA*

# Azərbaycan Milli Komissiyası 25 ildə UNESCO-da nələr etdi, nələr etmədi...

**Qədim və zəngin maddi-mədəni, mənəvi dəyərlərə malik olan Azərbaycan bir sıra nüfuzlu beynəlxalq qurumlarla, ümumdünya təşkilatları ilə sıx əməkdaşlıq qurub və bu əməkdaşlıq sahəsində ölkəmiz kifayət qədər uğur əldə edib. Azərbaycanın BMT-nin mühüm təsisatlarından biri olan UNESCO ilə hərtərəfli əlaqələr yaratması, bu quruma üzv dövlət kimi çoxşaxəli işlər görməsi diqqəti cəlb etməyə bilmir.**




***Aydın Xan Əbilov:** "Azərbaycan maddi və mənəvi irsinin UNESCO-nun nadir əsərləri sırasına daxil edilməsi beynəlxalq əməkdaşlığın əsas göstəriciləridir"*

***Leyla Abdullayeva:** "UNESCO üzrə Milli Komissiyanın əldə etdiyi uğurlar çoxdur"*

Məlum olduğu kimi, 25 il əvvəl UNESCO üzrə Milli Komissiyanın yaradılması ilə bağlı Heydər Əliyev mühüm sərəncam imzalayıb. Milli Komissiyanın yaradılması nəticəsində bu 25 ildə hansı nailiyyətlər əldə etmişik və nələrə nail ola bilməmişik?

Ekspertlər qeyd etdilər ki, UNESCO-Azərbaycan əlaqələrinin inkişafı ilə bağlı sabiq Azərbaycan Prezidenti mərhum Heydər Əliyev mühüm addım ataraq 1993-cü ilin dekabr ayında Fransa Respublikasında rəsmi səfərdə olarkən UNESCO-nun baş direktoru Federiko Mayorla görüşüb. UNESCO-nun nizamnaməsinə görə, üzv dövlət təhsil, elm və mədəniyyətlə məşğul olan qurumların fəaliyyətini UNESCO-nun işi ilə əlaqələndirmək üçün, ilk növbədə, Milli Komissiya yaratmaq yolu ilə müvafiq tədbirlər həyata keçirməlidir. Ona görə də UNESCO üzrə Azərbaycan Respublikasının Milli Komissiyasının yaradılması üçün lazımi addımlar atılıb və Heydər Əliyev bununla bağlı 21 fevral 1994-cü il tarixində Sərəncam imzalayıb. Sərəncama əsasən, Milli Komissiya Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinin nəzdində yaradılıb, xarici işlər naziri onun sədri təyin edilib və eyni zamanda, sədrə Milli Komissiyanın tərkibini müəyyən etmək səlahiyyəti verilib.

Yeni Yazarlar və Sənətçilər Qurumunun rəhbəri, yazıçı-kulturoloq Aydın Xan Əbilov bizimlə söhbətində qeyd etdi ki, UNESCO-Azərbaycan əlaqələrinin qurulduğu ilk dövrlərdən başlayaraq ölkəmizlə bu qurum arasında müştərək tədbirlər həyata keçirilib. A.X.Əbilovun sözlərinə görə, Azərbaycan Respublikasının sabiq prezidenti Heydər Əliyevin "Kitabi Dədə Qorqud" dastanının 1300 illik yubileyinin keçirilməsi ilə bağlı 20 aprel 1997-ci il tarixli Fərmanına əsasən, yubiley üzrə Dövlət Komissiyası yaradılıb, 21 fevral 1999-cu il tarixində Dövlət Komissiyasının tədbirlər planı haqqında Sərəncam imzalanıb.

O qeyd etdi ki, 9 aprel 2000-ci il tarixində Azərbaycan, Qazaxıstan, Qırğızıstan və Türkiyənin dövlət başçılarının və UNESCO baş direktoru (sabiq ) K.Matsuranın iştirakı ilə "Kitabi D?d? Qorqud" dastanının 1300 illik yubileyinə həsr olunmuş təntənəli tədbir keçirilib.

Müsahibimiz vurğuladı ki, 15 sentyabr 2005-ci il tarixində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev UNESCO ilə Azərbaycan Respublikası arasında qarşılıqlı əlaqələrin inkişaf səviyyəsini nəzərə alaraq, UNESCO üzrə Azərbaycan Respublikasının Milli Komissiyası ilə bağlı əlavə tədbirlər haqqında Sərəncam imzalayıb. Onun sözlərinə görə, Sərəncama əsasən UNESCO üzrə Azərbaycan Respublikasının Milli Komissiyasının yeni tərkibi müəyyənləşdirilib. Milli Komissiya Azərbaycanın UNESCO-dakı siyasətinin əsas istiqamətlərini müəyyən edir. "Bu gün Azərbaycanla UNESCO arasında əlaqələr davamlı şəkildə həyata keçirilir. Bu istiqamətdə Heydər Əliyev Fondunun apardığı məqsədyönlü fəaliyyəti xüsusi qeyd etməliyik. Azərbaycan maddi və mənəvi irsinin UNESCO-nun nadir əsərləri sırasına daxil edilməsi beynəlxalq əməkdaşlığın əsas göstəriciləridir. Muğam sənətinin, aşıq sənətinin, Novruz bayramının, İçərişəhərin, tar ifaçılığı sənətinin UNESCO-nun nadir, şah əsərləri sırasına daxil edilməsi Azərbaycanla bu təşkilat arasında olan əməkdaşlığın davamlılığını deməyə əsas verir. Sözsüz ki, bütün bu işlər, nadir irsimizin bu siyahıya daxil edilməsində Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın rolu danılmazdır" - deyə bildirən A.X.Əbilov hesab edir ki, Parisdə UNESCO-nun baş qərargahında qurumun Baş Konfransının 40-cı sessiyası çərçivəsində UNESCO üzrə Azərbaycan Respublikasının Milli Komissiyasının yaradılmasının 25 illiyinin təntənə ilə qeyd edilməsi də görülən uğurlu işlərin və məqsədyönlü siyasətin bariz nümunəsidir.

Azərbaycan dövlətinin UNESCO-nun prinsip və qaydalarına həmişə riayət etdiyini, bu quruma saysız töhfə verdiyini deyən müsahibimiz qeyd etdi ki, Milli Komissiya UNESCO ilə elm, təhsil, mədəniyyət, informasiya və kommunikasiya sahələrində əməkdaşlıq həyata keçirib, UNESCO-nun proqram və tədbirlərinin hazırlanmasında və reallaşdırılmasında yaxından iştirak edib.

Milli Komissiyanın 25 illik fəaliyyəti ərzində gördüyü işlərdən danışan müsahibimizin sözlərinə görə, Azərbaycan regional və beynəlxalq səviyyələrdə çoxsaylı layihə həyata keçirib.

A.X.Əbilov vurğuladı ki, təkcə 2018-ci il ərzində UNESCO ilə əməkdaşlıq çərçivəsində bir sıra tədbirlər həyata keçirilib. UNESCO üzrə Azərbaycan Respublikasının Milli Komissiyasının dəstəyilə Azərbaycanda və xarici ölkələrdə bir sıra tədbirlər təşkil olunub, o cümlədən, Azərbaycanın görkəmli bəstəkarı Qara Qarayevin 100 illik yubileyi UNESCO-nun baş qərargahında və Almaniyada qeyd edilib. Komissiyanın dəstəyilə Azərbaycan muğamının UNESCO-nun Bəşəriyyətin Qeyri-Maddi Mədəni İrsi üzrə Reprezentativ Siyahısına daxil edilməsinin 10 illiyi münasibətilə təşkilatın baş qərargahında, İtaliya, Türkiyə və Almaniyada muğam konsertlərinin təşkil olunduğunu qeyd edən müsahibimiz bildirdi ki, 2018-ci ildə ölkəmiz UNESCO-nun Qeyri-Maddi Mədəni İrsin Qorunması üzrə Hökumətlərarası Komitəsinə üzv seçilib. Hökumətlərarası Komitənin Mavriki Respublikasının paytaxtı Port Luis şəhərində keçirilən 13-cü sessiyasında "Çövkən-ənənəvi Qarabağ atüstü oyunu" faylı ilə bağlı milli hesabat qəbul olunub. O dedi ki, bundan başqa, "Yallı (Köçəri, Tənzərə), Naxçıvanın ənənəvi qrup rəqsləri" adlı nominasiya Təcili Qorunmaya Ehtiyacı olan Qeyri-Maddi Mədəni İrs Siyahısına və Azərbaycan, Türkiyə və Qazaxıstanın birgə "Dədə Qorqud/Korkyt Ata/Dede Korkut irsi: Dastan mədəniyyəti, xalq nağılları və musiqisi" adlı çoxmillətli nominasiya UNESCO-nun Qeyri-Maddi Mədəni İrsin Reprezentativ Siyahısına daxil edilib.

A.X.Əbilov qeyd etdi ki, regional əməkdaşlıqdan bəhs edən Ermənistanın heç bir çoxmillətli nominasiyası yoxdur.

Azərbaycan Respublikasının Milli Komissiyasının 25 illik fəaliyyəti ilə bağlı Azərbaycan Xarici İşlər Nazirliyindən qəzetimizə verilən məlumata görə, bu mövzuda dəfələrlə mətbuata məlumatlar verilib.

Nazirliyin Mətbuat xidmətinin rəhbəri Leyla Abdullayeva bizimlə söhbətində bildirdi ki, Milli Komissiya tərəfindən görülən işlərin sayı həddindən artıq çoxdur: "UNESCO üzrə Milli Komissiyanın əldə etdiyi uğurlar çoxdur. Bu sahədə görülən işlərlə, əldə edilən uğurlarla bağlı çox fikirlər bildirmək olar. Bu barədə bütün informasiyalar, məlumatlar, çıxış və fikirlər mediada yer alıb".

Prezident İlham Əliyevin 2018-ci il 29 avqust tarixli Sərəncamı ilə Milli Komissiyanın yeni tərkibi təsdiq olunub və hazırda komissiyanın 17 üzvü var. Milli Komissiya yerli qurumların müvafiq layihələrinin həyata keçirilməsinə dəstək verir, bundan əlavə, xarici ölkələrdəki diplomatik nümayəndəliklərimizlə birgə tədbirlər həyata keçirir.

Qeyd edək ki, bir müddət əvvəl Xarici işlər naziri Elmar Məmmədyarov Milli Komissiyanın 25 illiyi ilə bağlı bu sahədə əldə etdiyimiz uğurlarla bağlı mətbuata müsahibəsində "Bu il Milli Komissiyanın yaradılmasının 25 ilinin tamam olmasını nəzərə alaraq, ölkə daxilində və xaricində, o cümlədən, UNESCO-nun baş qərargahında bir sıra tədbirlərin keçirilməsini planlaşdırırıq. Vurğulamaq istərdim ki, Azərbaycan Respublikası UNESCO dəyərləri və prinsiplərinə sadiqdir və bu, UNESCO ilə səmərəli əməkdaşlıq münasibətlərimizlə təsdiqlənir.

Azərbaycan-UNESCO əlaqələrinin təməlinin qoyulmasında ümummilli liderimiz Heydər Əliyevin böyük rolu olub. Hələ sovet dövründə ulu öndər UNESCO-nun Azərbaycanla bağlı təşkil etdiyi tədbirlərdə yaxından iştirak edib.

Azərbaycan Respublikası müstəqilliyini bərpa etdikdən sonra - 1992-ci il iyunun 3-də UNESCO-ya üzv oldu. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 1993-cü ilin dekabrında UNESCO-nun baş direktoru Federiko Mayorla keçirdiyi görüş UNESCO ilə uğurlu əməkdaşlıq münasibətlərinin inkişafına təkan verib.

Hazırda Azərbaycan ilə UNESCO arasında əməkdaşlıq əlaqələrinin möhkəmləndirilməsi siyasəti Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ölkəmizlə UNESCO arasında əlaqələrin inkişafında və genişlənməsində Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, UNESCO-nun xoşməramlı səfiri xanım Mehriban Əliyevanın müstəsna xidmətləri olub. Xanım Mehriban Əliyevanın himayəsi ilə UNESCO çərçivəsində mədəni irsin qorunması, mədəniyyətlərarası dialoqun təşviqi, gender bərabərliyi, təhsilin inkişafı və digər sahələrdə əhəmiyyətli layihələr həyata keçirilib. Məhz xanım Mehriban Əliyevanın çoxşaxəli fəaliyyəti nəticəsində Azərbaycanın 2 maddi və 13 qeyri-maddi mədəni irs nümunələri UNESCO-nun müvafiq siyahılarında yer alıb" - deyə qeyd etmişdi.

***İradə SARIYEVA***

№ 207 (4105) ■ Qiyməti: 40 qəpik

# BAKI XƏBƏR

21 NOYABR 2019-cu il

www.baki-xeber.com

## "Nar" abunəçilərini arzuolunmaz mesajlardan və avtomatik qoşulmalardan qoruyur

**Müştəriyönümlü strategiyası ilə seçilən "Nar" təklif etdiyi məhsul və xidmətlərini abunəçilərdən gələn sorğular əsasında davamlı olaraq inkişaf etdirir. Mobil operator istifadəçilərin ehtiyac duyduğu əlavə xidmətləri yüksək keyfiyyətdə təqdim etməklə yanaşı, şirkətin şəffaflıq prinsipinə uyğun olaraq, abunəçilərini istənilməyən qoşulmalardan da qoruyur.**

Mobil operator arzuolunmaz SMS göndərişləri, veb səhifələrdən avtomatik qoşulma, səsli bələdçi xidməti ilə yönləndirmələr kimi müştəri təcrübəsinə mənfi təsir edə biləcək xidmətlərin abunəçilərə təqdim edilməməsi üçün lazımı tədbirlər görür. Belə ki, "Nar" abunəçiləri narahat edə biləcək xidmət göstərən məzmun təminatçısı şirkətləri ilə əməkdaşlıq etmir. Bu isə "Nar" abunəçilərinə yalnız şəxsi seçim əsasında ehtiyac duyduqları xidmətləri aktivləşdirmə imkanı verir.

"Müştərilərimizin istifadə etdikləri xidmətlər, eləcə də bu xidmətlərə qoşulma üsullarında tam şəffaflığın təmin edilməsi "Nar"ın müştəriyönümlü strategiyasının əsas tərkib hissələrindən biridir. Məqsədimiz müştərilərimizi spam xarakterli arzuolunmaz qoşulmalardan qorumaqdır. Uzun müddətdir ki, biz bu istiqamətdə çalışırıq və hələ ötən il işlərimizin böyük bir qismini tamamlamışdıq. Bu gün isə böyük məmnuniyyətlə bildiririk ki, artıq bu göstəricini sıfır həddinə çatdırmağa nail olmuşuq. "Nar" müştəriyönümlü strategiyasına sadiq qalaraq, hər zaman abunəçilərə yüksək keyfiyyətli xidmət göstərməyə davam edəcək", - deyə "Azerfon"un Kommersiya İdarəsinin direktoru Qəhrəman Kazımov bildirib. Abunəçilər yarana biləcək istənilən sualla bağlı "777" qısa nömrəsinə zəng edərək 24/7 rejimində çalışan Müştəri Xidmətlərinə, "Nar"ın "Facebook", "Twitter" və "Instagram" səhifələrinə, onlayn çata müraciət edə və qısa müddət ərzində sorğularına cavab ala bilərlər. Bundan başqa, "Nar+" mobil tətbiqinin "İstifadə tarixçəsi" bölməsindən də sərfiyyat haqqında lazım olan bütün informasiyanı əldə etmək mümkündür. Qeyd edək ki, "Nar" həyata keçirdiyi müştəriyönümlü strategiya və təqdim etdiyi yüksək keyfiyyətli xidmət sayəsində 2 il ərzində ilk dəfə olaraq mobil operatorlar arasında müştəri loyallığı indeksi üzrə birinci olub.

"Azerfon" şirkəti ("Nar" ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. "Nar" ticarət nişanı Azərbaycanın zəngin mədəni və tarixi irsinin çağdaş həyatla bağlılığının rəmzi olaraq seçilib. "Nar" ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib. "Nar" şəbəkəsi hazırda ölkə ərazisinin 97,7 %-ni (işğal olunmuş ərazilər istisna olmaqla) əhatə edir və 8600-dən artıq baza stansiyası ilə 2,3 milyondan çox abunəçiyə yüksək keyfiyyətli xidmət göstərir.

### Elan

Xuduyev Nazim Məşdi oğluna məxsus, Binəqədi rayonu, Binəqədi qəsəbəsində yerləşən torpaq sahəsinə Binəqədi Bələdiyyəsi tərəfindən verilmiş sərəncam itdiyi üçün etibarsız sayılır.

Qarayeva Sima Əlləddin qızının adına, Bakı şəhəri, Xətai rayonu, 2 nömrəli zeytun sovxozu, Zeytun küçəsi, ev 86 "C" ünvanının çıxarışı 19.11.2019-cu il tarixdə itdiyi üçün etibarsız sayılır.



## NASA Yupiterin peykində su buxarı olduğunu təsdiqlədi

**NASA alimləri Yupiterin "Avropa" peykinin səthində su buxarı olduğunu təsdiqləyiblər.**

"Oxu.az" xəbər verir ki, astronomlar "Havay" rəsədxanasında göy cisimlərində atmosferin kimyəvi tərkibini təyin etmək üçün 17 müşahidə aparıb və nəticələrini təhlil ediblər. Tədqiqatçılar su buxarının əvvəllər hesab edildiyi kimi, fəal formada deyil, ayrı-ayrı sıx püskürmələr şəklində meydana gəldiyi qənaətinə gəliblər. Bu günə qədər "Avropa" peykində maye halda su aşkar edilməyib. Lakin peykin səthindən olimpiya hovuzunu bir neçə dəqiqəyə doldura biləcək qədər su buxarı ayrılır.

## Nadir mavi almaz 14,9 milyon dollara satıldı

**CAR-da hasil olunmuş ümumi çəkisi 20,08 karat olan emal olunmamış nadir mavi almaz 14,9 milyon dollara satılıb.**

"Milli.Az" xəbər verir ki, almazın hasil edildiyi "Petra Diamonds Cullinan" adlı şaxtanın baş direktoru Riçard Daffi bildirib: "Biz almazın satış qiymətindən çox razıyıq. Bu razılaşma mavi almazların dəyərini izah edir". Məhz həmin şaxtada 1905-ci ildə dünyanın ən böyük almazı (3106 karat - 621,35 qr) hasil edilib. Vaxtilə həmin almaz Britaniya monarxı VII Eduarda göndərilib. Sonuncu mavi almazın alıcısının adı isə hələlik açıqlanmır.

## "Toyota" hərəkət edən süpürgə hazırladı

**"Toyota" elektrik süpürgə yaratdı. Yalnız yerdə istifadə edilə bilən bu süpürgə, Harri Potterlə həyatımıza daxil olan Quidditçi xatırladır.**

Yaponiyanın avtomobil nəhəngi "Toyota", sizi eynilə Harri Potterdəki kimi gəzdirə biləcək müasir bir süpürgəni hazırladı. "Toyota" şirkətinin yaratdığı bu maraqlı obyekt "e-broom" (e-süpürgə) olaraq adlandırılır. Bu məhsulun püskül qisimində olan bir təkər, istehlakçıların gəzə bilmələrini təmin edir. Ancaq bu məhsul, bu an üçün havalanma və ya yüksək sürətlərə çatmaq kimi bir iddiaya sahib deyil. Onsuz da "Toyota" şirkətinin də belə bir planının olduğu düşünülmür. Bu futuristik məhsul, əslində, çox sadə bir mexanizmə sahibdir. Bu məhsulun sahib olduğu elektrik mühərriki, istehlakçılar üçün məqbul sayıla biləcək bir güc meydana gətirir və bu güc, süpürgənin alt qisimində olan təkərə çatdırılır. Ayağına konki geyən bir istehlakçı, bu süpürgə sayəsində rahatlıqla hərəkət edə bilir. "Toyota" şirkətinin "e-broom" ixtirası Harri Potter ilə həyatımıza daxil olan Quidditçi sevərlərin marağını çəkəcək deyəsən. "Toyota", "e-broom" vasitəsinin sahib olduğu xüsusiyyətləri ətraflı açıqlamadı.





**Qoç** - Əqli əmək, maraqlı fəlsəfi mövzularda düşüncələr üçün əlverişli gündür. Təhsildə və elmi tədqiqatlarda uğur ehtimalı yüksəkdir. Ciddi ədəbiyyatın mütaliəsi, eləcə də, dünyagörüşünün artırılmasına yardım edən digər məşğuliyyətlər tövsiyə olunur.



**Buğa** - Əlverişsiz gündür. Taledən hədiyyə, ətrafdakılardan xoş sürprizlər gözləməyin. Nail olmadığınız hər şeyi yalnız öz gücünüzlə əldə edə bilərsiniz. Hansısa yeni layihə üzərində işə başlanması mümkündür.



**Əkizlər** - Bu gün işgüzar məsələlərin həlli üçün yaxşı gündür. Həyat potensialı, enerjiniz və mənəvi gücünüz yüksəkdir. Bu, uğur əldə etmək üçün lazım olacaq. Yeni çətin işlər meydana çıxacaq.



**Xərçəng** - Dostlarla görüşlər, yaxınlarla ünsiyyət sevinc bəxş edəcək. Qonaq qəbul etmək üçün münasib gündür. Vacib məsələləri evdə müzakirə etmək tövsiyə olunur. Uğurlu bazarlıqlar mümkündür.



**Şir** - Bütün qarşıdurma və münaqişələr kəskinləşəcək, ailə münasibətləri korlanacaq. Maliyyə mənzərəsi əlverişsizdir. Bu gün sövdələşmələrə getmək, iri bazarlıqlar etmək tövsiyə olunmur.



**Qız** - Bu gün daha çox romantik görüşlər üçün münasibdir. Ulduzlar tənha Qızlara sevgi macəraları vəd edirlər. Artıq sevənlər isə münasibətlərə yeni və hər iki tərəf üçün xoş nəsə əlavə edə bilərlər.



**Tərəzi** - Asanından tutmuş çətininə qədər müxtəlif məsələlərin həlli üçün əlverişli gündür. Bütün çətinliklərin öhdəsində gələ biləcəksiniz. Üstəlik, seçdiyiniz üsullar səy tələb etməyəcək.



**Əqrəb** - İşlərdə problemlər mümkündür. Fikri diqqət tələb edən məsələlərə yönəltmək çətin olacaq. Üstəlik, ətrafdakılar sizin işlərinizə yersiz müdaxilələr edəcəklər. "Ayı xidməti" göstərən bədxahlardan qorunmaq lazım gələcək.



**Oxatan** - Sizinlə manipulyasiya etmək çox asandır. Siz xoşunuz gələn şeylərə o qədər tez inanırsınız ki, bəziləri bundan istifadə etməyə bilmirlər. Hərdən intuisiyanız sizə ehtiyatlı olmağı məsləhət görsə də, siz buna qulaq asmağı lazım bilmirsiniz.



**Oğlaq** - Gün uğurlu başlayacaq. Siz gümrahlıq və yaşam gücünüzün artdığını hiss edəcəksiniz. Səhər saatları qadınlarla ünsiyyət üçün münasibdir. Axşama doğru isə güclü cinsin nümayəndələri ilə dil tapmaq daha asan olacaq.



**Dolça** - O qədər də əlverişli gün deyil. Ümidlərinizin qismətində doğrulmaq yoxdur. Amma siz bununla o dəqiqə barışmaq istəməyəcəksiniz. Bu gün üçün qurduğunuz planlar, çətin ki, həyata keçsin.



**Balıqlar** - Bu gün çox maraqlı olacağını vəd edir. Siz kənar təsirlərə çox həssassınız, istənilən şəraitə uyğun əhval-ruhiyyəyə ildırım sürətilə düşürsünüz. Bir çox Balıqlar özlərində gözlənilməz istedad və qabiliyyətlər aşkarlayacaqlar.

*Qoroskop Rusiya və Qərb astroloqlarının proqnozları əsasında hazırlanıb*

## Dünyanın ən effektiv elektrokarı yaradıldı

**Böyük Britaniyanın Kembric Universitetinin tələbələri günəş panelləri ilə təchiz edilmiş dünyanın ən effektiv elektrokarını yaradıb.**



"Qafqazinfo" xəbər verir ki, avto "Cambridge University Eco Racing" (CUER) layihəsi çərçivəsində hazırlanıb. Tələbələrdən ibarət komanda "Helia" elektromobilini layihələndirə və daha sonra yığmağa müvəffəq olub. Nəqliyyat vasitəsi 2,5 kVt istifadə edərək 80 km/saatadək sürət yığa bilir. Yüngül şassi və "Formaplex" texnologiyası əsasında hazırlanmış kuzanın panelləri sayəsində elektromobilin çəkisi cəmi 550 kiloqramdır. Kompozit materiallar sayəsində isə avto böyük məsafələri belə minimal enerji sərfiyyatı ilə qət edə bilir.

*Hazırladı: Ramil QULİYEV*

Baş redaktor: *Aydın Quliyev*

Baş redaktorun müavini: *Tahir Tağıyev*

Redaksiyanın ünvanı: *Bakı şəhəri, Mətbuat pr. 529-cu məhəllə, 6-cı mərtəbə*

Tel-faks: 510-87-40; 510-87-38; 510-87-39

e-mail: azer22@mail.ru

Reyestr № 0106-P219-45846

Qəzet həftədə 5 dəfə çıxır. (Bazar və bazar ertəsindən başqa). «BZ»-də çap olunur.

Sifariş: №2514 Tiraj: 3050

Qəzetdə «Olaylar» və «Trend» informasiya agentliklərinin materiallarından istifadə edilir.

Reklam mətninə görə qəzet məsuliyyət daşımır.